QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 036 (5267) 25 fevral 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan ilə Cibuti arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələri yüksək səviyyədədir

*Prezident İlham Əliyev Cibutinin xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

## Azərbaycan ilə Rusiyanı möhkəm dostluq və sıx iqtisadi əməkdaşlıq əlaqələri bağlayır

Fevralın 24-də "Sputnik Azərbaycan" beynəlxalq mətbuat mərkəzində "Rusiya və Azərbaycan: əməkdaşlıq və inkişafın 25 ili" mövzusunda tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, jurnalistlərlə görüşdə Rusiya Federasiyası İctimai Palatasının üzvü Sergey Markov, RF Dövlət Dumasının deputatı, ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, televiziya aparıcısı Oksana Puşkina, informasiya siyasəti, informasiya texnologiyaları və rabitə komitəsi sədrinin müavini Aleksandr Yuşşenko və Rusiyanın digər yüksək vəzifəli şəxsləri öz fikirlərini bölüşüblər. Sergey Markov qeyd edib ki, ötən 25 il ərzində Rusiya və Azərbaycan böyük əməkdaşlıq yolu keçib. Bu müddətdə ölkələrimizin bir-birinə çox yaxınlaşmasında hər iki dövlətin prezidentləri böyük rol oynayıblar. Rusiyanı və Azərbaycanı ildən-ilə möhkəmlənən bir çox istiqamətlər üzrə sıx iqtisadi əməkdaşlıq bağlayır. Oksana Puşkina Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə bağlı xatirələrini bölüşərək bildirib ki, bu nadir şəxsiyyətlə onun haqqında proqramın çəkilişi üçün Bakıya gəldiyi zaman tanış olub...

Səh-2


**Mehriban Əliyeva: Sizin səmimi diləkləriniz və dəstəyiniz mənim üçün çox vacibdir**



4

**Milli Məclisdə "Xocalı Soyqırımının 25 illiyi ilə əlaqədar" qərar layihəsi müzakirə olundu**



5

**Siyavuş Novruzov: "Cinayətkarların etiraflarını gözləməməliyik"**



6

**Xocalı Soyqırımı bəşəriyyət əleyhinə cinayətdir**



8

**V Qlobal Bakı Forumunda Rusiya iki nüfuzlu siyasətçi ilə təmsil olunacaq**



4

**"Azərbaycanın ədalətli mövqeyinin dünyaya çatdırılması üçün səylərimizi əsirgəməyəcəyik"**



4

6

**Xarici xüsusi xidmət orqanı ilə əməkdaşlıq edən Azərbaycan vətəndaşları tutulub**



6

**Brüsseldə "Xocalıya ədalət" mitinqi keçirilib**



16

**Mourinyodan Ranyeriyə: "Heç kim sən yazdığın tarixi silə bilməz"**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

25 fevral 2017-ci il

# Azərbaycan ilə Cibuti arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələri yüksək səviyyədədir

## *Prezident İlham Əliyev Cibutinin xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də Cibuti Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Mahmud Əli Yusufun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Cibuti arasında əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu məmnunluqla qeyd edən dövlətimizin başçısı Cibuti Respublikası parlamentinin Xocalı soyqırımının tanınması barədə qəbul etdiyi qərara görə minnətdarlığını bildirdi, bunu qardaşlıq münasibətlərimizin və ölkəmizə dəstəyin mühüm göstəricisi kimi dəyərləndirdi. Ondan çox ölkənin artıq Xocalı soyqırımını tanıdığını vurğulayan Prezident İlham Əliyev bunun tarixi həqiqətlərin doğru əks etdirilməsi və bu dəhşətli cinayəti törədənlərin mühakiməsi baxımından əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə Cibutinin BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini dedi, ölkələrimizin vacib məsələlərin müzakirəsi zamanı bir-birini daim dəstəklədiyini vurğuladı. Güclü siyasi əlaqələrin iqtisadi sahədə də əməkdaşlığın inkişafına zəmin yaratdığını bildirən Prezident İlham Əliyev hazırda əməkdaşlığımızın praktik şəkildə inkişafının müşahidə olunduğunu qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin nəqliyyat və yük daşımaları sahəsində çox yaxşı perspektivləri olduğunu bildirdi, bu istiqamətdə həyata keçirilən qarşılıqlı səfərlərin və təmasların vacibliyini vurğuladı. Prezident İlham Əliyev Cibuti Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin Azərbaycana səfərinin uğurlu və səmərəli olacağına, səfərin ölkələrimiz arasında münasibətlərin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi. Nazir Mahmud Əli Yusuf Cibuti Respublikasının Prezidenti İsmayıl Ömər Gellenin məktubunu Prezident İlham Əliyevə çatdırdı. Qonaq qeyd etdi ki, Bakı kimi gözəl bir şəhərdə qardaşcasına qarşılanmasından məmnunluq duyur. Azərbaycan ilə Cibuti arasında bir çox oxşarlıqların olduğunu deyən qonaq ölkələrimizin mürəkkəb regionda yerləşdiklərini vurğuladı. Azərbaycan ərazisinin bir hissəsinin işğala məruz qaldığını qeyd edən nazir münaqişənin sülh yolu ilə həll olunması istiqamətində gedən prosesləri yaxından izlədiklərini bildirdi və bu sahədə beynəlxalq səviyyədə qazanılan bir sıra diplomatik uğurların önəmini qeyd etdi. 1993-cü ildə Cibutinin BMT Təhlükəsizlik Şurasının üzvü olduğu dövrə toxunan Mahmud Əli Yusuf o zaman ölkəsinin beynəlxalq ictimaiyyəti Ermənistanın Azərbaycana qarşı təcavüzünü qınamağa çağırdığını və bu məsələdə sərt mövqe nümayiş etdirdiyini vurğulayaraq BMT Təhlükəsizlik Şurasının işğalı pisləyən 4 qətnamə qəbul etdiyini xatırladı. Azərbaycanın artıq güclü bir dövlətə çevrildiyini məmnunluqla qeyd edən Cibuti Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Azərbaycanın ədalətli mövqedə olduğunu, buna görə də beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyini vurğuladı.

Görüşdə Azərbaycan ilə Cibuti arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Küveyt Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha təbrik məktubu göndərib. Təbrikdə deyilir: “Əlahəzrət, Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Əminəm ki, Azərbaycan ilə Küveyt arasındakı dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Küveyt xalqına daim sülh və rifah diləyirəm”.

* * *

Eyni zamanda dövlət başçısı Küveyt Nazirlər Kabinetinin Sədri Cabir əl-Mübarək əl-Həməd əs-Sabaha da təbrik məktubu göndərib. Təbrikdə deyilir: “Əlahəzrət, Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm. İnanıram ki, Azərbaycan ilə Küveyt arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir. Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Küveyt xalqına daim əmin-amanlıq və rifah diləyirəm”.

* * *

Prezident İlham Əliyev əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# Azərbaycan ilə Rusiyanı möhkəm dostluq və sıx iqtisadi əməkdaşlıq əlaqələri bağlayır

Fevralın 24-də “Sputnik Azərbaycan” beynəlxalq mətbuat mərkəzində “Rusiya və Azərbaycan: əməkdaşlıq və inkişafın 25 ili” mövzusunda tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, jurnalistlərlə görüşdə Rusiya Federasiyası İctimai Palatasının üzvü Sergey Markov, RF Dövlət Dumasının deputatı, ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, televiziya aparıcısı Oksana Puşkina, informasiya siyasəti, informasiya texnologiyaları və rabitə komitəsi sədrinin müavini Aleksandr Yuşşenko və Rusiyanın digər yüksək vəzifəli şəxsləri öz fikirlərini bölüşüblər. Sergey Markov qeyd edib ki, ötən 25 il ərzində Rusiya və Azərbaycan böyük əməkdaşlıq yolu keçib. Bu müddətdə ölkələrimizin bir-birinə çox yaxınlaşmasında hər iki dövlətin prezidentləri böyük rol oynayıblar. Rusiyanı və Azərbaycanı ildən-ilə möhkəmlənən bir çox istiqamətlər üzrə sıx iqtisadi əməkdaşlıq bağlayır. Oksana Puşkina Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevlə bağlı xatirələrini bölüşərək bildirib ki, bu nadir şəxsiyyətlə onun haqqında proqramın çəkilişi üçün Bakıya gəldiyi zaman tanış olub. O.Puşkina vurğulayıb ki, “Jenskiy vzqlyad” televiziya verilişinin buraxılışlarından biri də Azərbaycanın birinci xanımına həsr edilmişdi. Aleksandr Yuşşenko müstəqillik illərində Azərbaycanın çox böyük inkişaf yolu keçdiyini və heyrətamiz nailiyyətlər qazandığını vurğulayıb. “Rusiya və Azərbaycan hər zaman müxtəlif məsələlərdə bir-birlərini dəstəkləyib, beynəlxalq proseslərdə isə prezidentlərimizin baxışları çox zaman üst-üstə düşür”, - deyə A.Yuşşenko qeyd edib. Sonra tədbir diskussiyalarla davam edib və qonaqlar jurnalistlərin suallarını cavablandırıblar.



# Azərbaycanın liderliyi ilə həyata keçirilən “Cənub Qaz Dəhlizi” enerji və milli təhlükəsizlik layihəsidir

## *“Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü toplantısının Bakıda keçirilməsi Azərbaycanın iqtisadi-siyasi gücünün artmasına xidmət edir*




***2011-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında “Cənub Qaz Dəhlizi” ilə bağlı birgə bəyannamə, 2012-ci ildə Türkiyə ilə TANAP-a dair saziş imzalanmış, 2013-cü ildə TAP layihəsi əsas ixrac marşrutu kimi seçilmiş, 2013-cü il dekabrın 17-də “Şahdəniz-2” layihəsinə dair yekun investisiya qərarı qəbul edilmiş və 2014-cü ildə “Cənub Qaz Dəhlizi”nin təməlqoyma mərasimi keçirilmişdir. Artıq üçüncü ildir ki, Azərbaycan “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısına ev sahibliyi edir.***




“Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü toplantısı da fevralın 23-də Bakıda keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü toplantısı xüsusi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü toplantısında çıxış edərək layihənin əhəmiyyətindən danışıb. Dövlət başçısının XXI əsrin layihəsi olan “Cənub Qaz Dəhlizi”nin həyata keçirilməsində beynəlxalq maliyyə qurumlarının fəaliyyətini vurğulayaraq, Avropa maliyyə təşkilatlarının da layihənin icrasında yaxından iştirak etmələrinin əhəmiyyətli olacağını bildirib. Həmçinin, Prezident İlham Əliyev 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi”nin gələcək enerji layihələrinin həyata keçirilməsindəki əhəmiyyətli rolundan bəhs edib və müasir Azərbaycanın nailiyyətlərindən danışıb. “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü toplantısının Bakıda keçirilməsi Azərbaycanın iqtisadi-siyasi gücünü artmasına xidmət edir. Nəzərə almaq lazımdır ki, dünyada dərin iqtisadi böhran yaşanır, beynəlxalq və regional layihələrin reallaşmasında maliyyə sıxıntıları yaşanır. Məhz belə bir şəraitdə toplantının Bakıda keçirilməsi Azərbaycanın nüfuzunu daha da artıracaq. Bu toplantı layihənin icra edilməsi zamanı ortaya çıxacaq texniki-iqtisadi və siyasi problemlərin həllində ortaq mövqeyin əldə edilməsinə imkanlar açacaq.

### “Cənub Qaz Dəhlizi” dövlətlərin yerləşdiyi Asiya və Avropa regionlarında istər-istəməz əməkdaşlıqdan doğan sabitlik hökm sürəcək

“Cənub Qaz Dəhlizi” layihəsi enerjinin şaxələndirilməsi, Avropa İttifaqının enerji təhlükəsizliyi ilə bərabər, həm də geniş regionda onun icrasına töhfə verə bilən bir sıra tərəfdaşlarla siyasi-iqtisadi və sosial əlaqələrin genişlənməsi və dərinləşməsindən ibarətdir. “Cənub Qaz Dəhlizi” kəməri kifayət qədər regionu əhatə etməklə, mühüm regional və qlobal əhəmiyyətə malikdir. “Cənub Qaz Dəhlizi” iştirakçı dövlətlər arasında münasibətlərin də yenidən şəkilləndirilməsinə təsir göstərməklə öz əhəmiyyətini daha da artıracaq. Dəhlizlə bu və ya digər formada bağlı olan dövlətlərin yerləşdiyi Asiya və Avropa regionlarında istər-istəməz əməkdaşlıqdan doğan sabitlik hökm sürəcək. Bu isə “Cənub Qaz Dəhlizi”nin qlobal əhəmiyyətini göstərən daha bir cəhətdir. Azərbaycan “Cənub Qaz Dəhlizi” layihəsi çərçivəsində nadir və nümunəvi beynəlxalq əməkdaşlıq formatı yaratmışdır.

### “Cənub Qaz Dəhlizi” layihəsinin uğurla icrası Azərbaycanla Avropa İttifaqı arasında gələcək əlaqələr üçün vacib amildir

“Cənub Qaz Dəhlizi”nin reallaşması ilə Azərbaycanın dünya birliyində yeri bir qədər də möhkəmlənəcək, bu ölkəmizə böyük siyasi dividendlər gətirəcək. Ölkəmiz dünyanın ən vacib regionlarından olan Avropanın enerji təminatının başlıca faktorlarından birinə çevrilməklə, həm də Avropa İttifaqının etibarlı tərəfdaşı rolunda çıxış edir. “Cənub Qaz Dəhlizi” layihəsi Avropanın enerji təhlükəsizliyi üçün strateji əhəmiyyət daşıyır. Avropa Xəzər hövzəsi kimi bir regionla birləşməyə və Azərbaycan kimi tərəfdaşla birgə fəaliyyət imkanına görə bu layihəni yüksək qiymətləndirir. “Cənub Qaz Dəhlizi” ilə bağlı təşəbbüsün müəllifi olan Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü, müdirik və tam müstəqil siyasət sayəsində Azərbaycan dünya dövlətləri arasında öz layiqli yerini tutur. Heç şübhəsiz ki, Azərbaycanın uğurla həyata keçirilən neft-qaz strategiyası dövlətimizin imicinin möhkəmləndirilməsinə və ölkəmizin iqtisadi qüdrətinin artmasına gətirib çıxaracaq.

**SAMİR**

# Mehriban Əliyeva: Sizin səmimi diləkləriniz və dəstəyiniz mənim üçün çox vacibdir



*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva yeni vəzifəyə təyin olunması münasibətilə onu təbrik edənlərə öz təşəkkürünü bildirib*

**"Əziz dostlar!**

Bu günlər mən cənab Prezidentin Sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti təyin olunmağım münasibətilə həm ölkəmin müxtəlif guşələrindən, həm də xaricdən çox sayda təbriklər alıram. Yeni vəzifədə mənə dəstək dolu sözlərinizi, diləklərinizi dərin minnətdarlıq hissi ilə oxuyuram. Bu təyinat mənim üçün çox böyük etimad və şərəfdir. Çünki bütün fəaliyyətim boyu mənim üçün əsas prioritet ölkəmizin və xalqımızın maraqları olmuşdur.

İndiyədək Heydər Əliyev Fondu bir çox əhəmiyyətli layihələr reallaşdırıb və mən bununla fəxr edirəm. Bu illər ərzində biz Azərbaycanın həyatında baş verən müsbət dəyişikliklərə öz töhfəmizi verməyi bacarmışıq. Amma yeni təyinat qarşıma artıq yeni hədəflər qoyur, yeni imkanlar açır. Mən gələcəyə nikbin baxıram. Çünki bu gün Azərbaycan qüdrətli, özünü təsdiq etmiş bir dövlətdir. Bizim inkişaf üçün böyük potensialımız, ən əsası isə insan kapitalımız vardır.

Əziz dostlar, mən ölkəmə, sizə, bizim yaradıcılıq enerjimizə inanıram. Ölkəmizin gələcəyi, onun inkişafı və firavanlığı üçün bizim hər birimiz cavabdehik. Bu gün sizin səmimi diləkləriniz və dəstəyiniz mənim üçün çox vacibdir. Mən bu dəstəyi hər zaman, fəaliyyətimin bütün mərhələlərində hiss etmişəm. Hesab edirəm ki, əsl minnətdarlıq özünü yalnız sözdə deyil, konkret əməldə göstərməlidir.

Sizi əmin edirəm ki, indiyədək önəm verdiyim prinsiplərə - öz Vətənimə və xalqıma xidmət, mərhəmət və ədalət, tolerantlıq və ümumbəşəri dəyərlərə bundan sonra da sadiq qalacağam. Hər birinizə uğurlar, cansağlığı və firavanlıq, doğma Vətənimizə isə sülh və inkişaf arzulayıram!"

# V Qlobal Bakı Forumunda Rusiya iki nüfuzlu siyasətçi ilə təmsil olunacaq

Rusiya Federasiyasının sabiq dövlət katibi, baş nazirin müavini Gennadiy Burbulis və Rusiya Xarici Kəşfiyyat Xidmətinin keçmiş direktoru, xarici işlər nazirinin keçmiş müavini Vyaçeslav Trubnikov V Qlobal Bakı Forumunda iştirak edəcək. Diasporla İş üzrə Dövlət Komitəsindən "SƏS" qəzetinə verilən məlumata görə, "Xarici əlaqələrin gələcəyi: güc və maraqlar" mövzusuna həsr olunmuş forumun "Baltik-Qara dəniz Təhlükəsizlik İcmasının yaradılması: Fəaliyyət Planına doğru" adlı panel iclasında Gennadiy Burbulisin çıxışı nəzərdə tutulub. G.Burbulis SSRİ-nin və Rusiyanın dövlət xadimi, 1990-92-ci illərdə Boris Yeltsinin yaxın silahdaşı, Rusiya Sovet Federativ Sosialist Respublikasının ilk və son dövlət katibi olub, həmin dövrdə Rusiyanın siyasətinə böyük təsir göstərib.

Vyaçeslav Trubnikov isə 1992-1996-cı illərdə Rusiya Xarici Kəşfiyyat Xidmətinin direktorunun müavini olub, Yevgeni Primakovun ölümündən sonra 2000-ci ilə qədər bu xidmətə rəhbərlik edib.

**NƏZAKƏT**





# Nazir Mahmud Əli Yusuf: "Azərbaycanın ədalətli mövqeyinin dünyaya çatdırılması üçün səylərimizi əsirgəməyəcəyik"




Azərbaycanın ədalətli mövqeyinin dünyaya çatdırılması üçün səylərimizi əsirgəməyəcəyik. Azərbaycan ilə Cibuti arasında əməkdaşlıq 1990-cı illərdən başlayıb. Cibuti BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin qəbulunda Azərbaycana dəstək verib. Ölkəmizin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyi dəyişməzdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Cibutinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Mahmud Əli Yusuf Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovla görüşdən sonra keçirilən mətbuat konfransında söyləyib.

Cibuti ilə Azərbaycan arasında siyasi məsləhətləşmələrin keçirildiyini qeyd edən nazir Azərbaycanın beynəlxalq arenada nüfuzunun artdığını vurğulayıb. O, iqtisadi sahədə əməkdaşlığın inkişafının önəmini bildirib.

Nazir deyib: "Cibuti mürəkkəb bir regionda sabitlik adasıdır. Azərbaycan sülhpərvər ölkədir. Coğrafi məsafə artıq önəm kəsb etmir. Biz limanların idarə olunması sahəsində əməkdaşlıq edirik. Bir çox sahələrdə əməkdaşlıq edə bilərik, bu, iki xalqın xeyrinə olacaq".

Elmar Məmmədyarov qeyd edib ki, Azərbaycan ilə Cibuti arasında münasibətlər uzun illərdir inkişaf mərhələsindədir. Cibutinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində həmişə Azərbaycanın mövqeyini dəstəklədiyini bildirən nazir bu ölkənin parlamentinin Xocalı soyqırımının tanınması barədə qərar qəbul etməsini xüsusi vurğulayıb. Nazir deyib ki, Cibuti Azərbaycanla yükdaşımalar haqqında saziş imzalamağı planlaşdırır. Cibutidə azad iqtisadi zonalar çərçivəsində əməkdaşlıq üzrə planlar var. İki ölkə humanitar sahədə əməkdaşlığı inkişaf etdirmək niyyətindədir. Həmçinin Cibuti gənclərinin Azərbaycanın ali təhsil müəssisələrində təhsil almaları məsələsi müzakirə olunur.

# Milli Məclisdə "Xocalı Soyqırımının 25 illiyi ilə əlaqədar" qərar layihəsi müzakirə olundu

*Dünən Milli Məclisin növbəti plenar iclasında "Xocalı Soyqırımının 25 illiyi ilə əlaqədar" qərar layihəsi müzakirə olunub. İlk öncə, millət vəkilləri Xocalı Soyqırımı qurbanlarının xatirəsini 1 dəqiqəlik sükutla yad ediblər.*



### Oqtay Əsədov: "Xocalı Soyqırımını törədənlər layiqli cəzalarını alacaqlar"

Milli Məclisin spikeri Oqtay Əsədov bildirib ki, Xocalı Soyqırımı xalqımızın başına gətirilən ən dəhşətli faciədir. Xocalı faciəsindən əvvəl ermənilər azərbaycanlılar yaşayan Qaradağlı kəndində 80 nəfər dinc insanı qətlə yetirib. Bu cinayətlərin içərisində ən dəhşətlisi Xocalıda törədilib. Spiker bildirib ki, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasətinin 200 ildən artıq tarixi var: "Ermənilər Azərbaycanın tarixi torpaqlarında dövlət qurub. 1948-50, 1988-90-cı illərdə Ermənistan və Dağlıq Qarabağ ərazisində yaşayan azərbaycanlılar deportasiyaya məruz qalıb".

O.Əsədovun sözlərinə görə, ermənilər 1992-ci ildə Xocalıda etnik təmizləmə həyata keçiriblər.

Xocalı faciəsinə ilk siyasi qiymətin Ulu Öndər tərəfindən verildiyini deyən spiker qeyd edib ki, Xocalının Soyqırımı kimi tanıdılması istiqamətində işlər davamlı olaraq, həyata keçirilməkdədir: "Hazırda Xocalı Soyqırımının tanıdılması istiqamətində işlər görülür. Bu işlərin nəticəsidir ki, bir çox ölkələrin parlamentləri, eləcə də, ABŞ-ın 22 ştatı faciəni soyqırımı kimi tanıyıb. Xocalı qətliamının dünya ictimaiyyətinə tanıdılması istiqamətində Milli Məclis də öz fəaliyyətini davam etdirməkdədir. Belə ki, deputatlarımızın iştirak etdiyi beynəlxalq tədbirlərdə məsələni diqqətdə saxlayır, parlament üzvləri hər il faciənin ildönümü ərəfəsində bir çox ölkələrdə həyata keçirilən anım tədbirlərində iştirak edirlər".

Spiker qeyd edib ki, Milli Məclis tərəfindən Xocalı Soyqırımı ilə bağlı nəşrlər toplusu işıq üzü görəcək: "Xalqımız heç zaman bu faciəni unutmayacaq. Biz inanırıq ki, xalqımıza qarşı həyata keçirilən vəhşi əməl sahibləri layiqli cəzalarını alacaqlar. Azərbaycan gec-tez torpaqlarını işğaldan azad edəcək".

### Ziyafət Əsgərov: "Xocalı faciəsinin tanıdılması istiqamətindən görülən işlər müsbət nəticəsini verir"

Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov parlamentdə faktlara əsaslanan geniş məruzəsi zamanı bildirib ki, Xocalı Soyqırımından 25 il keçsə də, bu faciə heç vaxt unudula bilməz. Çünki Xocalı Soyqırımı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biridir.

Faciə zamanı dinc əhalinin vəhşicəsinə, kütləvi şəkildə qətlə yetirildiyini deyən vitse-spiker bildirib ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək üçün Ermənistanın apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı çoxsaylı Soyqırımı cinayətləri törədilib: "Xocalıdan əvvəl azərbaycanlıların yaşadığı kəndlərin işğalı zamanı əhalinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Xocalı şəhərinin yer üzündən silinməsi və əhalisinin kütləvi şəkildə qətlə yetirilməsi planı Ermənistanın siyasi və hərbi rəhbərliyi tərəfindən qabaqcadan hazırlanıb. Xocalıda törədilən dəhşətli cinayət nəticəsində, 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, 487 nəfər şikəst edilib, 1275 sakin girov götrülərək, amansız işgəncələrə məruz qalıb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən, 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyil. Bu barədə beynəlxalq təşkilatlara da məlumat verilib".

Faciənin dünyada tanıdılması ilə bağlı hazırda ölkəmizdə görülən işlərdən söz açan Z.Əsgərov qeyd edib ki, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xocalıya ədalət" kampaniyası çərçivəsində görülən işlər ildən-ilə daha da genişlənir: "Xocalı Soyqırımının dünya miqyasında tanıdılması üçün həyata keçirilən tədbirlər öz müsbət nəticəsini verir".

### Siyavuş Novruzov: "Onlar öz cinayətini etiraf edirsə, biz niyə gözləməliyik?!"

"Xocalı faciəsi etnik və dini təmizləmə məqsədilə törədilən qırğındır"- deyən YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov Milli Məclisin Xocalı faciəsi ilə bağlı hazırladığı qərar layihəsindən danışarkən deyib. O bildirib ki, Xocalı faciəsi ilə bağlı bəzi fikirlər səsləndirilir: "Beynəlxalq hüquqa uyğun olaraq, Xocalı faciəsi Soyqırım adlandırılır".

S.Novruzov hesab edir ki, Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən faciənin təşkilatçıları barədə şifahi qərar çıxarılmalıdır və bütün dünyaya yayılmalıdır: "Artıq faciəni törədənlərin bir neçəsi öz törətdiyi cinayəti etiraf edib. Dırnaqarası erməni ziyalısı Zori Balayan öz kitabından uşaqların necə öldürülməsi və türklərin yandırılmasından zövq aldığını deyir".

Millət vəkili vurğulayıb ki, əgər onlar öz cinayətlərini etiraf edirsə, biz niyə gözləməliyik ki? S.Novruzovun fikrincə, bu məlumatlar hazırlanıb beynəlxalq təşkilatlara və İnterpola göndərilməlidir.

### Bahar Muradova: "Xocalıda baş verənlər insanlığa utancdır"

"Müharibə etmək, sülh istəmək onu necə həyata keçirmək adamların dünyagörüşü, həyata baxışı onun qəlbindən gələn şəkildə ifadə oluna bilər. Amma bir qayda olaraq, siyasət siyasətçilərin işi olduğu kimi, hərb də hərbçilərin işidir. Biz müxtəlif məsələlər haqqında fikirlərimizi bildirə bilərik. Lakin müharibə ilə bağlı qərar Ali Baş Komandanın işidir. Buna görə də, gəlin nə xalqımızın, millətimizin torpağımızın işğal olunması ilə bağlı keçirdiyi hissiyyatları şübhə atına alaq, nə də bu vəzifəni daşıyan yüksək rəsmilərin qərar verməsinə hansısa tərəflərin rəyindən asılı olduğuna dair fikir formalaşdıraq". Bu sözləri Milli Məclisin sədr müavini Bahar Muradova parlamentin dünən keçirilən iclasında çıxışı zamanı deyib.

B.Muradova, həmçinin, Azərbaycan Pprezidentinin bu yaxınlarda Münxen konfransında bu məsələ, eləcə də, ATƏT-in Minsk Qrupu ilə bağlı öz mövqeyini ortaya qoyduğunu deyərək bildirib ki, dövlət başçısı konfranslardakı çıxışları ilə nə qədər qətiyyətli lider olduğunu göstərdi: "Buna görə də, hər kəs əmin olsun ki, Azərbaycan Prezidenti sülh danışıqları apармaqla yanaşı, ölkəmizi ərazilərimizin hərbi yolla alınmasına da hazırlayır. Hər gün övladlarımızın şəhid olması, bizimlə yanaşı, Azərbaycan Prezidentini də narahat edir. Şəhidlərimizlə yanaşı, Çingiz, Mübariz kimi qəhrəman oğullarımızın sayının artmasını da unutmamalıyıq. Biz bədgüman olmamalı, Xocalı, eləcə də, digər həqiqətlərimizlə bağlı həm ölkəmizdə, həm də ölkədən kənarda danışmalıyıq. Əgər bu danışıqlar olmasa idi beynəlxalq ictimaiyyətdə, ayrı-ayrı parlamentlərdə Xocalı ilə bağlı qərarlar qəbul edilməzdi".

Vitse-spiker onu da qeyd edib ki, Xocalı işğaldan azad edilsə belə, bu faciə haqqında danışılacaq: "Bu faciəni unutmaq olmaz. Biz erməni vəhşiliyi obrazını ölməyə qoymamalıyıq. Bu baxımdan, hesab edirəm ki, zamanında hansısa addımlar atmaq lazımdırsa, onu siyasət və danışıqlarla möhkəmləndirməliyik. Artıq ABŞ-ın 23-cü ştatı da Xocalını Soyqırımı kimi qəbul edib. Mən əminəm ki, Azərbaycan dövlətinin məsələnin siyasi və ideoloji tərəfini daim gündəmdə saxlaması siyasəti tamamilə doğrudur. Biz də Azərbaycan xalqı olaraq, bu siyasətin möhkəmləndirməsinə öz töhfəmizi verməliyik. Xocalıda baş verən hadisə insanlığa utancdır".

Sonda parlamentin plenar iclasında Xocalı Soyqırımının 25 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi səsə qoyularaq, qəbul edilib. Qərar layihəsi ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Respublikasının hərbi birləşmələri, Dağlıq Qarabağdakı erməni silahlı dəstələri və keçmiş sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən Xocalı şəhərində azərbaycanlıların kütləvi qırğınının Milli Məclisin 1994-cü il 24 fevral, 1995-ci il 24 fevral, 2007-ci il 27 fevral və 2012-ci il 24 fevral tarixli qərarları ilə Soyqırımı (genosid) cinayəti kimi qiymətləndirilməsi bir daha təsdiq ediləcək.

Qərarla Milli Məclis deputatlarına bir vəzifə olaraq tapşırılacaq ki, xarici ölkələrə səfərlər zamanı, o cümlədən, beynəlxalq təşkilatların tədbirlərində iştirak edərkən, son yüz ildən artıq dövrdə azərbaycanlıların məruz qaldıqları soyqırımı aktları, o cümlədən, Xocalı faciəsi haqqında həqiqətlərin daha geniş yayılmasını təmin etsinlər, bu məqsədlə Milli Məclisin xarici ölkələrin parlamentləri ilə əlaqədar üzrə işçi qruplarının imkanlarından dolğun və səmərəli istifadə etsinlər.

**RÖVŞƏN NURƏDDİNOĞLU,
RƏFİQƏ KAMALQIZI**

# Siyavuş Novruzov: “Cinayətkarların etiraflarını gözləməməliyik”

*“Tarixin hər bir dönəminə baxsaq, Azərbaycanın dinc əhalisi üzərinə gələn nizami ordu ilə vuruşmaqla üzüzə qalıb”. Bunu Milli Məclisin dünən keçirilən plenar iclasında parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İcra katibinin müavini Siyavuş Novruzov deyib.*



Onun sözlərinə görə, beynəlxalq hüququn prinsiplərinə görə, Xocalı soyqırımı etnik, dini təmizləmə məqsədilə həyata keçirilən qətliamdır: “Xocalı soyqırımının həyata keçirilməsində iştirak edənlərin siyahısı tərtib olunub. Hüquq mühafizə orqanları şifahi də olsa, onlar haqqında qərar çıxarmalı və bu qərar dünyaya yayılmalıdır. Biz onların nə vaxtsa tutulacağını və məhkəmə qurulacağını gözləməməliyik. Onların bir neçəsi törətdikləri cinayəti BMT kürsüsündə belə etiraf ediblər. Ermənistan prezidenti Serj Sarkisyanın özü BMT-də Xocalıda neçə iştirak etməsini etiraf edib. Bundan artıq etiraf lazımdır? Ermənistanın böyük “ziyalısı” alanan Zori Balayan uşaqların öldürülməsi, onların yandırılmasından ləzzət aldığını qeyd edib. Onlar dünya ictiamiyyətinin qarşısında öz günahlarını boynuna alıblar. Bu baxımdan nəyə görə biz onların izahat yazması və ya məhkəmə qarşısında etiraflarını gözləməliyik? Bu insanlarla bağlı hərbi məhkəmədə cinayət işi qaldırılıb. Hərbi məhkəmənin kollegiyası qərar qəbul edərək, bütün dünya ölkələrinə göndərməlidir. Bununla bağlı məhkəmə hüquq sistemində mövcud olan şifahi qərar da qəbul etmək olar”.

S.Novruzov əlavə edib ki, Azərbaycan Prezidenti həm Münhendə keçirilən konfransda, həm də müsahibələrində birbaşa Xocalı faciəsinə toxunaraq günahkarların adlarını sadalamaqla yanaşı bildirdi ki, Xocalı soyqırımının törədilməsinin səbəblərindən biri də orada yaşayan insanların İslam dininə olan inancıdır: “Əfsus ki, bəzi islam ölkələri Ermənistanla isti münasibət qurmağa cəhd edirlər. Əgər insanlar islama olan inancına görə qırılırlarsa, digər tərəfdən onların Ermənistana isti münasibəti qəbuledilməzdir. Milli Məclis Azərbaycan Prezidentinin fikirlərinə dəstək olaraq həmin ölkələrin parlamentlərinə müraciət göndərməlidir”.

# Brüsseldə “Xocalıya ədalət” mitinqi keçirilib

Brüsseldə, Avropa İttifaqı siyasətinin planlaşdırıcısı və koordinatoru olan Avropa Komissiyasının qərargahı önündə “Xocalıya ədalət” şüarı altında mitinq keçirilib. Azərbaycanlıların və Digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin Belçika-Azərbaycan Dostluq Cəmiyyəti ilə birgə təşkil etdikləri mitinqdə Milli Məclisin deputatı, Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxış edərək bildirib ki, azərbaycanlılar iki əsrdən artıqdır ki, erməni separatçılarının etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalırlar. Ermənistanın XX əsrdə reallaşdırdığı siyasət də, məhz buna hesablanıb: “Məqsəd bəllidir - Qafqazda türk varlığına son qoymaq. Xocalı Soyqırımı da belə bir mənfur xislətdən irəli gələrək törədildi. Bu soyqırımı bəşəri cinayətdir. Bura toplaşmaqda məqsədimiz də insanlıq əleyhinə olan cinayət əməllərinə dünya ictimaiyyətinin





diqqətini çəkməkdir”. Ə.Amaşov həmçinin Xocalı Soyqırımının dünya mediasının gündəminə çatdırılması sahəsindəki işlərin daha da intensivləşdirilməsinin vacibliyini önə çəkib. O, qeyd edib ki, ermənilər uzun illərdir qondarma “erməni soyqırımı” iddiası ilə dünya gündəmini işğal ediblər: “Bu, bir gerçəklikdir ki, Ermənistan dövləti erməni lobbi və diaspor təşkilatlarının maraqlarına uyğun fəaliyyət göstərir, erməni kilsələrinin siyasi xarakterli oyunlarının vasitəçiliyini edir. Buna qarşı əks-təbliğatın aparılması zəruridir. Avropadakı türk və azərbaycanlı diaspor təşkilatlarının bu prosesdə tənzimləyici rol oynaması mütləqdir”.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Qafar Əliyev çıxışında Azərbaycan dövlətinin Xocalı faciəsinin tanıdılması istiqamətində apardığı məqsədyönlü və ardıcıl işlərdən söz açıb. O bildirib ki, Ermənistanın Azərbaycana qarşı soyqırımı və terror siyasətinin mahiyyətinin dünya birliyinə çatdırılması ölkəmizin xarici siyasətində mühüm vəzifə kimi müəyyənləşdirilib. Bu işdə xaricdəki səfirliklərimiz və diaspor təşkilatlarımızın də üzərinə mühüm missiya düşür. Qafar Əliyev onu da bildirib ki, Xocalıda dinc əhaliyə, ahıllara və uşaqlara qarşı törədilmiş amansız qətliamlar müasir dünya düzəninin dinc və birgəyaşam qaydalarına kökündən vurulmuş zərbədir”.

MŞ İdarə Heyətinin üzvü, ATXƏM-in sədri İlham İsmayıl çıxışında bildirib ki, dünya Xocalı həqiqətləri barədə müfəssəl məlumata malik olmalıdır. Dünya anlamalıdır ki, XX əsrdə törədilmiş bu dəhşətə laqeyd münasibət, günahkarların cəzasız qalmaları ümumən bəşəriyyət üçün böyük təhdidlərə yol açan mənzərə formalaşdırır.

“Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli çıxışında Xocalı Soyqırımının beynəlxalq hüquq tərəfindən soyqırımı cinayəti aktı kimi tanınmasının yetərincə hüquqi əsaslarının olduğunu diqqətə çatdırıb.

Belçika-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Ayhan Dəmirçi ermənilərin son yüz il ərzində Azərbaycan torpaqlarında etnik təmizləmə siyasəti yürüdərək, bir neçə dəfə soyqırımı aktlarını törətdiklərini qeyd edib. Mitinqdə Azərbaycan və Türk diaspora təşkilatlarının nümayəndələri, tələbələr və yerli sakinlərin iştirak ediblər. ATXƏM-in icra katibi, “Birlik” jurnalının baş redaktoru İlqar İlkin, Türk “Gent ocagı” kurucu başkanı Recep Tuncer Sarı, Holandiya Azerbaycan Evinin rehberi İlhan Aşkın və başqaları Xocalı Soyqırımının dünyaya tanıdılmasını yönələn tədbirlərin mütəşəkkilliyinin faydalı cəhətlərinə diqqət çəkiblər.

**NƏZAKƏT**



# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ucarda vətəndaşların müraciətlərini dinləyib

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir, onların müraciət və təkliflərini dinləyir, konkret tədbirlər görürlər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 24-də Ucar şəhərindəki Heydər Əliyev Mərkəzində Ucar və Göyçay rayonlarından olan vətəndaşları qəbul edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin müvafiq bölgə şöbəsinin də iştirak etdiyi qəbulda vətəndaşlar diqqətlə dinlənilib. Müraciətlər əsasən, dini icmaların dövlət qeydiyyatı və fəaliyyəti, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərə dini ədəbiyyatın verilməsi, Quran kurslarının təşkili və sair məsələlərlə bağlı olub. Bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər isə qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Vətəndaşlar qəbul üçün yaradılan şəraitdən razılıqlarını bildirib, bölgələrdə bu cür qəbulların keçirilməsinin təşəbbüsçüsü olan Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Xarici xüsusi xidmət orqanı ilə əməkdaşlıq edən Azərbaycan vətəndaşları tutulub



Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) aparılan cinayət işi üzrə əməliyyat-istintaq tədbirləri nəticəsində Azərbaycan Respublikasının vətəndaşları Əmiri Elşən Məcid oğlu və Babayev Elçin Tacir oğlunun casusluq formasında dövlətə xəyanət etmələrinə əsaslı şübhələr müəyyən edilib.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, xarici ölkə ərazisində xarici xüsusi xidmət orqanı əməkdaşları tərəfindən yazılı iltizamla məxfi əməkdaşlığa cəlb olunan Elşən Əmirinin və Elçin Babayevin 2016-cı ilin yanvarından etibarən həmin orqan tərəfindən verilən tapşırıqlar əsasında Azərbaycan Respublikasının hüquq mühafizə orqanlarının məxfi heyətinə daxil olan əməkdaşları, Müdafiə Nazirliyinin hərbi hissələri, onların döyüş potensialı, eləcə də strateji əhəmiyyətli dövlət obyektləri barəsində məlumatlar toplanılması istiqamətində fəaliyyətləri kompleks əməliyyat nəzarətinə götürülərək sənədləşdirilib. Fevralın 20-də Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidməti tərəfindən birgə həyata keçirilmiş tədbirlər nəticəsində Elşən Əmiri və Elçin Babayev casusluq fəaliyyətlərinin nəticəsi olan maddi sübutlarla şübhəli şəxs qismində tutularaq, cinayətin qarşısı alınıb. Elşən Əmiri və Elçin Babayev Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə cinayət məsuliyyətinə cəlb olunub. Məhkəmənin qərarı ilə onların barələrində həbs qətimkan tədbiri seçilib. Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# 13 saylı tam orta məktəbdə Xocalı qurbanları anılıb

Dünən 13 saylı tam orta məktəbdə Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu, Azərbaycan Universiteti və “SƏS” Media Qrupun təşkilatçılığı ilə Xocalı soyqırımının 25-ci ildönümünə həsr edilmiş anım tədbiri keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbir başlamazdan öncə, məktəbin foyesində Xocalıya həsr edilmiş rəsm əsərlərinə baxış keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Bundan sonra faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mərasimi açan 13 saylı tam orta məktəbin direktoru Yaqut Sadıqova qeyd edib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı Soyqırımı bəşər tarixində ən qanlı faciələrdən biridir. Y.Sadıqova Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi və müdrik siyasəti nəticəsində qanlı faciəyə hüquqi-siyasi qiymət verildiyini vurğulayıb. O, gəncləri ərazi bütövlüyümüzün bərpa edilməsi və torpaqlarımızın erməni işğalından azad olunması naminə sıx birliyə, həmrəyliyə, sosial şəbəkələrdə fəallıqlarını daha da genişləndirməyə çağırıb.





Qeyd edilib ki, dünyanın sülhsevər insanları, sivil dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları, beynəlxalq ictimaiyyət bu acı həqiqətləri bilməli, insanlığa qarşı törədilən bu cinayət öz hüquqi qiymətini almalıdır. Sonra Azərbaycan Universitetinin professoru Qabil Əliyevin soyqırımı ilə bağlı fikirləri dinlənilib. O bildirib ki, 1992-ci ildə fevralın 25-dən 26-na keçən gecə amansız cinayətə rəvac vermiş ermənilər qəddar və qaniçən millət olduqlarını bir daha təsdiq etdilər: “Məqsəd bütövlükdə bəşəriyyətin gözünü qorxutmaq olub, erməni terrorizmi dünyanı bu yolla “ram etməyə” çalışıb. Lakin hiyləgər və məkrli düşmən bu yolla istəyinə nail ola bilmədi, Xocalının qəhrəman və fədakar insanları düşmən qarşısında mənən sınmadılar, sonadək vuruşaraq, Vətənə sədaqət nümunəsi, rəşadət və igidlik göstərdilər. Bu gün xocalılar ölkəmizin müxtəlif bölgələrində məskunlaşıblar, amma hər birimizin məqsədi, arzusu doğma torpaqlarımıza, Xocalıya qayıtmaq, işğal olunmuş torpaqlarımızı azad etməkdir”.

Daha sonra Azərbaycan Universitetinin sifarişi ilə “SƏS” İnternet televiziyasının hazırladığı film nümayiş etdirilib. Sonda Azərbaycan Universiteti və 13 saylı tam orta məktəbin şagirdlərinin hazırladığı “Fəryad” kompozisiyası və Xocalı səhnəciyi nümayiş etdirilib.

# Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin kursantlarının Soyqırımı Muzeyinə ekskursiyası təşkil olunub



Xocalı Soyqırımını və ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş digər cinayətləri əks etdirən eksponatlarla tanışlıq zamanı kursantlara erməni şovinist millətçilərinin soyqırımı siyasətinin yüzillər boyu planlı surətdə həyata keçirildiyi, bu siyasətin mahiyyətinin xalqımızı öz doğma torpaqlarından sıxışdırıb çıxarmaq və fiziki cəhətdən məhv etmək yolu ilə mifik “böyük Ermənistan dövləti” yaratmaq olduğu izah edilmişdir.

Ekskursiyanın sonunda soyqırımlıardan bəhs edən sənədli film nümayiş olunmuşdur.

**S.FEYRUZOV**

*Xocalı Soyqırımının 25-ci ildönümü ilə əlaqədar Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin kursantlarının Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda fəaliyyət göstərən Soyqırımı Muzeyinə ekskursiyası təşkil olunmuşdur. Ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş soyqırımı hadisələrinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət haqqında kursantlara geniş məlumat verilmişdir.*



# Unudulmayacaq qan yaddaşı

*İsa Həbibbəyli: “Xocalı Soyqırımı insanlığın tarixində qara ləkə kimi qalacaq”*



Ermənistan silahlı qüvvələrinin Xocalı şəhərində azərbaycanlılara qarşı Soyqırımı törətməsindən 23 il ötür. Hər il olduğu kimi, bu il də Azərbaycanın bütün şəhər və rayonlarında, o cümlədən, dünyanın bir çox ölkəsində Xocalı Soyqırımının ildönümü münasibətilə anım tədbirləri keçirilir, soyqırımı qurbanlarının xatirəsi yad edilir, Ermənistanın azərbaycanlılara qarşı törətdiyi bu dəhşətli faciə barədə dünya ictimaiyyətinə dolğun məlumatlar verilir.

“SƏS” qəzetinə Xocalı qətliamı ilə bağlı fikirlərini bölüşən AMEA-nın vitse prezidenti, millət vəkili İsa Həbibbəyli bildirdi ki, Xocalı Soyqırımı insanlığın tarixində qara ləkə kimi qalacaq: “Xocalı soyqırımı Azərbaycan xalqının ümummilli faciəsidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın silahlı qüvvələri Xocalı şəhərində dinc əhaliyə qarşı Soyqırımı törətdi. Bu soyqırımı bəşəriyyətə və sivilizasiyaya qarşı cinayətdir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Xocalı Soyqırımına siyasi-hüquqi qiymətin verilməsi mümkün oldu. Belə ki, Ümummilli Liderimizin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də “Xocalı Soyqırımı günü haqqında” xüsusi qərar qəbul etdi, sənəddə hadisənin başvermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlandı. Eyni zamanda, Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, erməni qəsbkarlarının beynəlxalq müstəvidə ifşası mühüm vəzifələr kimi önə çəkildi. Bu gün Azərbaycan hökuməti, Azərbaycan Prezidenti Xocalı hadisəsini kütləviləşdirmək üçün əlindən gələni əsirgəmir. Amma bizim hər birimiz millət vəkili, alim olaraq, bu yöndə öz töhfələrimizi verməliyik. Bu baxımdan, ölkəmizin hər yerində olduğu kimi, Azərbaycan Milli Elmlər Akademiyasında da həmişə Xocalı Soyqırımı alimlərimiz tərəfindən geniş şəkildə qeyd olunur. Azərbaycan alimləri Xocalı Soyqırımı ilə bağlı hər il ermənilərin işğalçılıq siyasətini əks etdirən yeni elmi-tədqiqat işləri aparırlar. Azərbaycan alimlərinin ermənilərin Azərbaycanın toponimlərini saxtalaşdırılmasına dair elmi tədqiqat əsərləri, eyni zamanda, erməni və “hay” anlayışlarının fərqli mənalarını ifadə etmək üzrə tədqiqatları və sairə bu kimi yeni tədqiqat işləri hazırlanılıb. Həmçinin, ilk dəfə olaraq, Azərbaycan alimləri “Erməni psixologiyası” adlı kitab da nəşr edib. Bu kitabda ermənilərin hansı psixologiyaya malik olduğu aydın şəkildə göstərilir. Eyni zamanda, bu əsərdə erməni kişilərinin, qadınlarının və gənclərinin tərbiyələrini əks etdirən ciddi məsələlər, xüsusi olaraq göstərilir. Beləliklə də, Azərbaycan Elmlər Akademiyası və onun alimləri, bütövlükdə, Ermənistan-Azərbaycan münaqişəsinin sənədlərlə öyrənilməsi və “Xocalıya ədalət” kampaniyasının uğurla aparılması istiqamətində sistemli işlər aparırlar. Bütün bunlarla yanaşı, alimlərimiz dünyanın müxtəlif ölkələrində keçirilən “Xocalıya ədalət” kampaniyasında yaxından iştirak edir, ermənilərin işğalçılıq və soyqırımla bağlı əldə etdikləri sənədləri dünya ictimaiyyətinə çatdırırlar.

Bütövlükdə, bütün bu görülən işlər, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən sistemli şəkildə siyasətin qurulması onu göstərir ki, biz heç zaman torpaqlarımızın işğalı ilə barışmayacaq və mütləq öz ərazi bütövlüyümüzü təmin edəcəyik.

**RƏFİQƏ HÜSEYNOVA**

# Xocalı Soyqırımı bəşəriyyət əleyhinə cinayətdir

***Erməni-daşnak millətçiləri və onların havadarları, az qala, iki əsrə yaxındır ki, hər il uydurma "erməni soyqırımı" ilə bağlı yalanlarını dünyaya, bəşəriyyətə sırımağa çalışırlar. ABS-da Amerika yazıçısı Samuel Viimsin "Ermənistan: terrorçu xristian dövlətinin sirləri" kitabı işıq üzü görmüşdür. Uzun illər Londonda, Parisdə, Romada, İstanbulda, Moskvada və Vaşinqtonda aparılan tədqiqatların nəticəsi olan, faktlara və sənədlərə istinadən ərsəyə gələn bu kitab 400 səhifədən ibarətdir. Müəllif kitabda qeyd edir ki, erməni mənşəli amerikalıların 150 yaşlı "qədim" vətənlərini mükafatlandırmaq üçün türklərdən, eləcə də, Amerika xristianlarından böyük məbləğdə pul vəsaiti qoparmaq məqsədilə soyqırımı və qətllərlə bağlı uydurma və yalanlar yaydığını sübut edən faktlar aşkar etmişəm.***









Dindar xristian olan S.Viims kitabında yazır ki, 1918-ci ildə kiçik bir ərazidə erməni dövlətinin yarandığı vaxtdan o, qonşuları Gürcüstana, Osmanlı imperiyasına və Azərbaycana qarşı torpaq iddiaları irəli sürməyə başlamışdır. Kitabda, eləcə də, tanınmış tarixçi-alim Oqust Karyerin fikri verilir. O, ermənilərin yalnız Nuh Pəyğəmbərin gəmisinin qalıqlarının Ararat dağında tapıldığına görə guya ermənilər Nuh Pəygəmbərin nəslindən olan Haykın törəmələri, Serqi Anadolunun isə başdan-başa erməni torpaqları olması barədə iddialarını rədd edir. Beləliklə, ermənilərin mənşəyi barədə məlumatlar uydurmalara, daha dəqiq desək, ağ yalana əsaslanır.

Amerika alimi kitabında Qarabağ problemi ilə bağlı qeyd edir ki, 1800-cü ildə Qafqaz regionunda çox az sayda erməni tapmaq olardı. Rusiya mənbələrinə istinad edilərsə, Qafqaz bölgəsinin Rusiyaya birləşdirildiyi dövrdə Qarabağda 90 min nəfər yaşayırdı. Orada böyük səhər və 600 kənd var idi. Onların 150-də ermənilər yaşayırdılar. Ancaq dağlılar zorla köçürüldükdən sonra, ermənilər burada üstünlük təşkil etdilər. 1907-1912-ci illərdə Rusiya çarizmi yarım milyondan çox ermənini İrandan və Osmanlı dövlətindən, əsasən, müsəlman azərbaycanlıların yaşadığı Qars, İrəvan və Yelizavetpola (Gəncə) köçmələrinə kömək etdi. Başqa sözlə, geosiyasi mənafelər naminə Qafqazda demokratik dəyişikliklər edildi. XX əsrın əvvəllərində Qarabağdan çıxan bircə yol vardı. O da, Bakıya gedirdi. Ermənistana isə heç bir yol yox idi. Təkcə bu fakt çox şeydən xəbər verirdi. Bəlkə, elə buna görə, hətta bolşeviklər də etiraf etmişdilər ki, Qarabağ həmişə Azərbaycan torpağı olmuşdur.

1918-cı il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarından biri İrəvanın, (Yerevan) siyasi mərkəzi olmayan Ermənistan Respublikasına paytaxt verilməsi idi. O zaman yalnız İrəvan və Eçmiədzın (Üç kilsə) rayonlarından ibarət bu "dövlət"də cəmi 400 min əhali yaşayırdı. Zaman göstərir ki, İrəvanın verilməsi gənc Azərbaycan Cümhuriyyətinin bağışlanılmaz səhv idi və onun nəticələri hələ də özünü göstərməkdədir.

Hazırda "soyqırımı" haqqında car çəkən ermənilər de-fakto vətəndaşı olmadıqları - çünki Vətən xainləri ölkə vətəndaşları sayıla bilməzlər,- de-yure vətəndaşı hesab edildikləri Osmanlı imperiyasına qarşı öz qeyri-real və xəyanətkar münasibətləri barədə bir kəlmə də danışmırlar. Halbuki o vaxt Osmanlı imperiyasının özünü müdafiə etmək məqsədilə erməniləri cəbhə xəttindən uzağa köçürməyə qanuni haqqı var idi. Çünki ermənilər açıq şəkildə hərbi əməliyyatlarda rus orduları tərəfində döyüşürdülər. ABŞ da bu hüquqa əsaslanaraq, İkinci Dünya müharibəsi illərində ölkənin yapon mənşəli bütün vətəndaşlarını Qərb sahillərindən köçürmüşdü. Stalin bu hüquqdan istifadə edərək, sovet dövlətinin təhlükəsizliyini qorumaq üçün Volqaboyunda yaşayan almanları Qazaxıstana və Orta Asiyaya köçürmüşdü. Tarixdə belə nümunələr çox olmuşdur. Böyük Britaniyanın 1916-1922-cı illərdə baş naziri işləmiş Devid Lloyd Corcun qeyd etdiyinə görə, 1915-ci ildə Osmanlı imperiyasında baş verən faciəli hadisələrin təqsirkarları Türkiyədə beşinci dəstəni maliyyələşdirən Rusiya, eləcə də, rusları Osmanlı torpaqlarını tərk etməyə məcbur edən Britaniya imperiyasıdı. Həmin dövrdə sayca qat-qat çox türk, azərbaycanlı, yəhudi və Qafqazın digər




xalqlarının nümayəndələrini qətlə yetirmiş erməni quldur dəstələrinin əməllərini də nəzərdən qaçırmaq olmaz.

Kiçik dünyanın hər yerinə səpələnmiş ermənilər həm tayfalarından istifadə edərək, uzun illər xristian aləmini islama və müsəlmanlara qarşı qaldırmağa çalışmışdır. Samuel Viimsin fikrincə, müsəlman aləmində Amerikaya "nifrətin" səbəblərindən biri də budur.

"Terrorçu xristian dövlətinin sirləri" sənədli tədqiqat əsərinin üz qabığında oxuculara tövsiyə edilir: "Bu kitabı hər bir xrıstıan və Amerikada hər bir vergi ödəyicisi oxumalıdır". Biz isə deyə bilərik ki, dünyanın həqiqəti əziz tutan hər bir vətəndaşı bu kitabı oxumalıdır. Erməni millətçiləri tarix boyu xalqımıza qarşı görünməmiş qətllər və vəhşiliklər törətmişlər.

Tarixi Azərbaycan torpağı olan Zəngəzur, Göycə və digər ərazilər sovet rəhbərliyinin əli ilə verildi. Dağlıq Qarabağ erməniləri muxtariyyət qazandı və onların gələcəkdə qanunsuz ərazi iddiaları üçün zəmin hazırlandı. Erməni daşnakları təkcə XX əsrdə dörd dəfə (1905-1906, 1918-1920, 1948-1953, 1988-1991-ci illərdə) azərbaycanlıları indiki ermənilərin məskən saldığı ərazisindən, tarix etnik torpaqlarından qırğınlarla deportasiya etmişlər. "Türksüz " adı altında mübarizəyə qalxan erməni millətçiləri, eləcə də, yaxın və uzaq xaricdə yaşayan havadarları, etnik təmizləmə işini 1991-ci il avqustun 8-də başa çatdırdılar. Meğri rayonunun son məntəqəsi Nüvədidə yaşayan azərbaycanlılar soyqırımına məruz qalaraq, tarixi-etnik torpaqlarından deportasiya olundular. Belə demək olar ki, indi Qərbi Azərbaycanda bir nəfər də olsun azərbaycanlı qalmamışdır.

1988-1991-ci illərdə Sovet İttifaqı dövlətinin başçılarının köməyi sayəsində hökumət Qərbi Azərbaycan əhalisini indiki yurdlarından deportasiya etdi. XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki bu ərazidə soyqırımına və deportasiyaya məruz qaldı.

1935-1991-ci illərdə də Azərbaycan yer adlarına qarşı qərəzli siyasət nəticəsində minlərlə toponimlər xəritədən silinib erməniləşdirildi. Azərbaycanın tərkib hissəsi olan Qarabağın da birləşdirilməsi məqsədilə 1988-ci ildən başlanan separatçılıq hərəkatı, işğalçılıq müharibəsi, etnik təmizləmə Azərbaycana qarşı cinayətkar siyasətin yeini mərhələsidir. Hazırda Azərbaycan torpaqlarının 20 faizi erməni işğalı altındadır. 1 milyondan çox insan öz yurdundan didərgin salınıb. 18 min azərbaycanlı qətlə yetirilib, 20 mindən çox dinc sakin yaralanıb, 5 mindən çox adam əlil olub, 4 mindən çox insan əsir və itkin düşüb, 877 şəhər və kənd qarət edilib, dağıdılıb.

Erməni birləşmiş dəstələri Rusiyanın Xankəndidəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə birlikdə XX əsrin Xatın faciəsini arxada qoyan Xocalı Soyqırımını təşkil etdilər. O vaxtkı respublika rəhbərliyinin cinayətkar əməlləri nəticəsində şəhərin müdafiə işləri pis təşkil olunmuşdu. 80 nəfərlik Xocalı özünümüdafiə taburu heç bir zirehli texnika ilə təchiz olunmamışdı. Onlara əsas briqadanın 11-ci taburu ilə 20 nəfərdən ibarət minaatanlar batolyonu kömək edirdi. 60 nəfərlik milis dəstələri isə təyyarə meydanını müdafiə edirdi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni daşnak hərbi birləşmələri və keçmiş SSRİ-yə məxsus 366-cı alay (üç batalyondan ikisi tam tərkibdə, biri isə qismən), eləcə də, xarici dövlətlərdən gətirilmiş muzdur quldur dəstələri Xocalıya hücum etdilər. Şəhərin müdafiəsinə qalxanlar azsaylı və pis silahlanmış olsalar da, qəhrəmanlıqla döyüşmüşdülər. Xüsusi təyinatlı milis dəstəsinin komandiri, milis mayoru Əlif Hacıyev döyüş meydançasında qəhrəmanlıq göstərdi. Onun başçılığı altında olan 22 nəfərlik dəstə erməni daşnak birləşmələrinin hucumlarını üç dəfə uğurla dəf etdi. Döyüşdə qüvvələr bərabər deyildi. Mayor Əlif Hacıyev vəziyyətin mürəkkəb olduğunu görəndə, limanın distpetçer məntəqəsini partladaraq, erməni birləşmiş qüvvələrinin əlinə düşməsinə imkan vermədi. Döyüşlərdə qorxmaz komandir ağır yaralandı və qəhrəmancasına həlak oldu. Ölümündən sonra Əlif Hacıyevə Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Düşmən tankları zirehli maşınlarının artelleriya hazırlığından sonra Mehikənd, Daşbulaq isdıqamətində Xocalıya daxil oldu və şəhər içərisində döyüşlər başladı. 366-cı alayın mayoru Ohanyanın komandası altında ikinci, mayor Nobadxının komandası altında üçüncü motoatıcı taburları, eləcə də, topçu diviziyası, öz qəddarlığı və vəhşiliyi ilə fərqlənirdi.

Tofiq Hüseynovun başçılıq etdiyi ərazi-özünümüdafiə taburunun döyüşçüləri çox qüvvətli, yırtıcı düşmənlə qəhrəmancasına və ləyaqətlə döyüşürdülər. Tofiq son nəfəsinədək vuruşdu, düşmən əsgərlərini azdırıb, çoxlu insanın mühasirədən çıxmasına imkan yaratdı. Son anda özü mühasirəyə düşdü. O, düşmənə təslim olmayaraq, son gülləsini özünə vurdu. Ölümündən sonra Tofiq Hüseynova Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Ağdam-Əsgəran istiqamətində yığılmış hissələr arasında əlaqə və ümumi rəhbərlik olmaması üzündən onlar erməni işğalçılarına qarşı hucum qura bilmədilər.

Erməni vandalları Xocalı şəhərində soyqırımı törətdilər. Şəhərə od vurub yandırdılar. Sağ qalanların bir hissəsi, əsasən, qadınlar, qocalar və uşaqlar şəhərin Qərb istiqamətində iki yolla Ağdama tərəf qaçmağa başladılar. Qarlı-şaxtalı gündə ayaqyalın meşədə qalan qaçqınların çoxunu şaxta vurdu, yaralıların bir hissəsi öldü. Səhərisi gün sağ qalanların bir hissəsi Xocalıdan 6-7 kilometr aralı Qaraqaya adlanan yerdə meşədən çıxarkən, pusquda dayanmış erməni faşist dəstələri tərəfindən güllələbaran edildilər. Xilas olaraq, Abdal-Gülablı kəndinə getməyə səy göstərənlər düşmən mühasirəsinə düşüb, atəşə tutuldular. Erməni daşnakları yaralılara aman vermir, meyitləri eybəcər hala salır, qadın və qızları təhqir edirdilər.

Xocalı şəhərinin əhalisi 13 min nəfər idi. Xocalıda erməni vandalları azərbaycanlılara qarşı növbəti soyqırımı törətdilər. 613 nəfər, o cümlədən, 106 qadın, 63 azyaslı uşaq, 70 qoca öldürüldü. Min nəfər dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu. 1275 nəfər girov götürüldü. 56 nəfər xüsusi amansızlıqla - diri-diri yandırıldı, başlarının dərisi soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı 1918-ci ildə, mart soyqırımı zaman olduğu kimi, süngü ilə dəlik-deşik edildi. Bu faciədə təkcə erməni faşistləri və rus millətçiləri deyil, həm də uzun müddət düşmən əhatəsində qalan şəhərə lazımi kömək etməmiş, əhalini təhlükəsiz yerlərə köçürmək üçün tədbirlər görməmiş Azərbaycan rəhbərliyi, eləcə də, hakimiyyət uğrunda mübarizədə Qarabağ problemindən istifadə edib siyasi kapital toplamaqla vəziyyətin gərginləşməsinə çalışan siyasətbazlar təqsirkar idilər.

Nüfuzlu beynəlxalq qurumların, dünya birliyi ölkələrinin ikili standartlardan yanaşmalarının nəticəsidir ki, bu dəhşətli soyqırımı -Xocalı Soyqırımı ilə əlaqədər heç kəs məsuliyyətə cəlb edilməmiş, cinayətkarlar hələ də cəzasız qalmışlar.

***FİRUDİN CÜMŞÜDLÜ,***
***tarix elmləri namizədi,***
***ADPU-nun dosenti***




# "Xocalı fəryadı" adlı tədbir keçirildi



Dünən Bakı Şəhər İcra Hakimiyyəi başçısı Aparatının Kino Xidməti İdarəsi Memarlıq və İnşaat Universitetində Xocalı faciəsinin 25-ci ildönümünə həsr olunmuş tədbir keçirdi. Xocalı faciəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi və dövlət himni səsləndi. Universitetin müəllim və tələbələrinin iştirak ediyi tədbirdə universitetin professor - müəllim və tələbə heyəti iştirak etdi. Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru memarlıq doktoru, professor Gülçöhrə Məmmədova, tarix elmləri namizədi, professor Həvva Məmmədova və nəqliyyat fakültəsinin magistrantı Əmrah Vahabzadə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində ermənilərin törətdikləri dəhşətli hadisələrin Azərbaycanın tarixinə qanlı hərflərlə yazıldığını söylədilər. Bu faciənin təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı törədilmiş ağır cinayət olduğunu və ermənilər tərəfindən bir gecədə çoxlu sayda günahsız insanların amansızlıqla qətlə yetirildiyini bildirdilər.

Kino Xidməti İdarəsinin rəisi Gültəkin Nəriman Xocalıda baş verən kütləvi qırğında dinc əhalinin xüsusi qəddarlıqla qətlə yetirilməsi, əsir götürülən insanların isə dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qaldıqlarını bildirdi. Qeyd etdi ki, Xocalı faciəsinin törədilməsindən 25 il keçməsinə baxmayaraq, faciə dəhşətləri hələ də unudulmayıb. Qanlı hadisələr zamanı şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaq, onları gənc nəslə örnək göstərmək hər kəsin vətəndaşlıq borcudur.

Tədbirdə "Savalan" qrupunun rəhbəri müğənni, aktyor Novruz Novruzlu Xocalı faciəsi ilə bağlı çıxış etdi. Sonda Xocalı faciəsinə həsr olunmuş ssenari müəllifi və rejissoru Gültəkin Nəriman olan "92-ci ilin qarı" adlı sənədli film nümayiş olundu.

***ZÜMRÜD***

# Xocalısız 25 il

Dünən AMEA-nın əsas binasında Azad Həmkarlar İttifaqının təşkilatçılığı ilə Xocalı Soyqırımının 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. AHİ sədri, iqtisad üzrə elmlər doktoru İsa Alıyev iclası açaraq, Xocalı Soyqırımının ermənilərin azərbaycanlılara qarşı tarix boyu törətdiyi qırğınların pik nöqtəsi olduğunu bildirib: "Faciədən 25 il ötsə də, bir çox dövlətlər hələ də bunu rəsmi şəkildə qəbul etmək istəmir. Bu, o deməkdir ki, bizim varlığımız hələ də kimlərisə, narahat edir. Bu gün Azərbaycan, haqlı olaraq öz ordusunu gücləndirir və güclü ordumuzun olması bizi qürurlandırır. Biz başımızı dik tutmalı və quruculuq işlərimizi davam etdirməliyik". Sonra Xocalı şəhərinin polis rəisi olmuş Sabir Məmmədov çıxış edib. O, həmin dövrlərdə Özbəkistanda işlədiyini, lakin ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərə dözməyərək vətənə qayıtdığını bildirib. AHİ sədrinin müavini, hüquq elmləri doktoru, professor Habil Qurbanov, Ədəbiyyat İnstitutunun Həmkarlar Komitəsinin sədri, filologiya elmləri doktoru Asif Rüstəmli, Fizika İnstitutunun aparıcı elmi işçisi Rəhim Ələkbərov və jurnalist Rauf İlyasov çıxışlarında ermənilərin Xocalıda törətdikləri vəhşiliklərin miqyasından danışıblar.

***NƏZAKƏT***

# Tarixin qanlı səhifəsi - Xocalı Soyqırımı



Dünən Suraxanı rayonu Heydər Əliyev Mərkəzinin, Suraxanı rayon icra hakimiyyətinin və YAP Suraxanı rayon təşkilatının birgə təşkilatçılığı ilə Xocalı Soyqırımının 25-ci ildönümünə həsr olunmuş ümumrayon tədbiri keçirildi.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Xocalı Soyqırımının, o cümlədən, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov qeyd etdi ki, tarixinin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin qarlı qışında Xocalıda üzləşdi. Xocalı Soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur: “Erməni separatçılarının Azərbaycan xalqının məhv edilməsinə yönəldilmiş soyqırımı və işğalçılıq siyasətinin davamı olan Xocalı faciəsinə qiymət vermək yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra mümkün oldu. İlk növbədə, Xocalı Soyqırımı ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı aktı kimi təsbit olundu, bu faciənin dünyaya tanıdılması istiqamətində xeyli iş görüldü”. Azərbaycan Prezidenti İlham Əliyevin Xocalı Soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün davamlı və ardıcıl fəaliyyətin vacibliyini dəfələrlə vurğuladığını bildirən İ.Abbasov Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımlarda Heydər Əliyev Fondunun da müstəsna rolu olduğunu bildirdi.

Tədbirdə “Xocalı Soyqırımı Tanıtma” İctimai Birliyinin sədri Şamil Sabiroğlu, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, milli qəhrəman Füzuli Rüstəmovun bacısı Fiqurə Rüstəmova, 290 №-li tam orta məktəbin hərbi hazırlıq müəllimi, “Xocalı Soyqırımını Tanıtma” İctimai Birliyinin üzvü Muxtar Həşimov, “Asan Radio”nun əməkdaşı Vəfa Səfərova, Suraxanı rayonunda məskunlaşmış Xocalı şəhər sakini, soyqırımı nəticəsində yaxınlarını itirmiş Qədim Abbasov çıxış etdilər. Sonda 290 nömrəli tam orta məktəbin şagirdlərinin ifasında Xocalı Soyqırımına həsr olunmuş ədəbi-bədii kompozisiya göstərildi.

***ZÜMRÜD***

# Xocalı Soyqırımı Fəlsəfə İnstitutunda anıldı



**AMEA** Fəlsəfə İnstitutunda Xocalı Soyqırımının 25-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib. Tədbiri giriş sözü ilə açan elmi müəssisənin direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilərin Xocalıda azərbaycanlılara qarşı törətdikləri qanlı faciə barədə məlumat verdi. 25 il keçməsinə baxmayaraq, soyqırımı cinayətləri ilə bağlı faktların hüquqi, sosioloji və humanitar aspektdən araşdırıldığını söyləyən İ.Məmmədzadə bu istiqamətdə analitik, publisistik və elmi yazılara daha çox yer ayırmağın vacibliyini önə çəkərək, faciənin beynəlxalq aləmdə tanıdılması üçün xarici dillərdə kitab və məqalələrin çapının artırılmasının zəruriliyini vurğuladı.

İnstitutun elmi işlər üzrə direktor müavini, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Eynulla Mədətli çıxış edərək, Xocalı Soyqırımının başəriyyət tarixində ən böyük faciələrdən biri olduğunu bildirib: “Xocalıda törədilən soyqırımı vəhşiliyin görünməmiş bir təzahürüdür. Həmin tarixdən 25 il ötsə də, kədərli faciənin ildönümündə Xocalı şəhidlərinin əziz xatirəsi bir daha yad edilir, tarixi olaylara yenidən nəzər salınır”. Anım tədbirində, fəlsəfə üzrə elmlər doktorları Xatirə Quliyeva, Fizuli Qurbanov, sosiologiya üzrə fəlsəfə doktoru Əhməd Qəşəmoğlu, fəlsəfə üzrə fəlsəfə doktoru Elsevər Səmədov, elmi işçi Yasəmən Qaraqoyunlu və digər çıxış edənlər erməni silahlı qüvvələrinin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər və bu vəhşiliyin kulminasiyası olan Xocalı Soyqırımı, erməni silahlı birləşmələrinin qəddar əməllərindən və insanlığa sığmayan vəhşiliklərindən söz açdılar.

***NƏZAKƏT***




# DAŞKƏSƏNDƏ XOCALI SOYQIRIMI QURBANLARI ANILDI

Dünən Daşkəsən rayon Mədəniyyət Mərkəzində keçirilən Xocalı Soyqırımının 25-ci ildönümünə həsr olunan ümumrayon anım tədbirində yığıncaq iştirakçıları əvvəlcə şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Tədbirdə Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev tarixdə analoqu olmayan, ötən əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş Xocalı Soyqırımını yalnız soydaşlarımıza deyil, bütövlükdə, bəşəriyyətə qarşı törədilmiş cinayət kimi səciyyələndirib: “Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk praktik təşəbbüs Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbilə hakimiyyətə qayıdışından sonrakı dövrə təsadüf edir. Bu məqsədlə atılan mühüm addımlardan biri erməni təcavüzü nəticəsində üzləşdiyimiz milli faciələrimizə siyasi-hüquqi qiymətin verilməsi oldu. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis “Xocalı Soyqırımı Günü haqqında”qərar qəbul etdi. Məhz bu baxımdan, Heydər Əliyev Fondunun fəaliyyəti nəticəsində, Azərbaycan haqqında əsl həqiqətlər beynəlxalq aləmə çatdırılır, bu istiqamətdə təbliğat və təşviqat aparılır, erməni vandalizmi bütün gerçəklikləri ilə dünyaya təqdim olunur”.

Ə.Abıyev çıxışında onu da bildirib ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu məsələdə Azərbaycana verilən beynəlxalq dəstək ildən-ilə daha da güclənir: “Bu gün dövlətimiz tərəfindən aparılan məqsədyönlü siyasətin nəticəsi kimi dünyanın bir sıra ölkələrində Xocalı faciəsinə soyqırımı kimi qiymət verilir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi altında “Xocalıya ədalət” kampaniyası ötən illər ərzində diqqətçəkən uğurlara nail olmuşdur. Dünyanın ən böyük şəhərlərində, beynəlxalq tribunalarda Xocalı sakinlərinin haqq səsi eşidilməkdədir”. Tədbirin sonunda rayon mədəniyyət işçilərinin və Daşkəsən rayon A.Mürsəlov adına 2 nömrəli tam orta məktəbin müəllim və şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiya nümayiş etdirilib və Xocalı faciəsindən bəhs edən sənədli filmə baxış keçirilibdir.

***RƏFİQƏ KAMALQIZI***

# Səbail rayonunda Xocalı faciəsinin 25-ci ildönümü anılıb



Dünən Xocalı Soyqırımının 25-ci ildönümü ilə bağlı Səbail rayon icra hakimiyyətində Xocalı şəhərindən köçkün düşərək Səbail rayonunda məskunlaşan ailələrin nümayəndələri ilə görüş keçirilib. Anım mərasimində çıxış edən Səbail rayon icra hakimiyyətinin başçısı Eldar Əzizov Azərbaycan xalqının qan yaddaşı olan Xocalı faciəsi, ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşiliklər və Xocalı Soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin nəzərinə çatdırılması üçün görülməsi vacib olan işlər barədə məlumat verib: “Xocalı Soyqırımının geniş ictimaiyyətə çatdırılması üçün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin böyük əməyi olub. Məhz Onun təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisində ilk dəfə bu məsələyə siyasi qiymət verilib, faciənin dünya ictimaiyyətinin nəzərlərinə çatdırılması məqsədilə işlərə başlanılıb. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Xocalının, həmçinin, işğal altında olan bütün Azərbaycan torpaqlarının düşməndən azad ediləcəyinə, ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına əmin olduğunu, lazım gələrsə ölkə başçısı, Ali Baş Komandanın əmri ilə silaha sarılaraq, müharibə yolu ilə torpaqlarımızın azad olunması üçün bütün qüvvələrin səfərbər ediləcəyini bildirib”.

Tədbirdə çıxış edən Xocalı sakinləri ölkə rəhbərliyinin səyləri ilə Xocalının azad olunacağı günü səbirsizliklə gözlədiklərini və bu günün tezliklə gələcəyinə əmin olduqlarını bildiriblər. Daha sonra rayon rəhbərliyi, ictimaiyyətin nümayəndələri, Xocalıdan məcburi köçkünlərlə birgə Sahil bağında rayon orta məktəblərinin şagirdlərinin Xocalı faciəsinin ildönümü ilə əlaqədar təşkil olunmuş rəsm müsabiqəsinə təqdim olunan rəsmlərdən ibarət sərgi ilə tanış olublar. Sonra müsabiqədə fərqlənən müsabiqə qaliblərinə diplom və qiymətli hədiyyələr təqdim olunub. Sonda Səbail rayonunda məskunlaşmış Xocalı köçkünlərinə rayon icra hakimiyyəti tərəfindən maddi və ərzaq yardımları göstərilib.

***R.HÜSEYNOVA***

# Nəsimi rayonunda Xocalı Soyqırımına həsr olunan tədbirlər davam edir

*Dünən Nəsimi rayon ictimaiyyəti Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyində olub. Ekskursiya zamanı bələdçi bildirib ki, Respublika Hərbi Prokurorluğunda yaradılan muzey Azərbaycan xalqının gələcək nəsillərinin qan yaddaşının qorunmasına və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət edən ağır bir tarixi hadisəni özündə əks etdirən nümunədir.*



Hərbi Prokurorluğun Soyqırımı Muzeyi XX əsrin əvvəllərindən bəri erməni-bolşevik silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar və soyqırımıları nəticəsində, həlak olan on minlərlə azərbaycanlının xatirəsinə həsr edilib. Muzey dörd bölmədən - tarix, deportasiyalar-repressiyalar, soyqırımıları və terror bölmələrindən ibarətdir. Muzeyin yaradılmasında əsas məqsəd XX əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırımı cinayətləri barədə tarixi həqiqətləri əyani şəkildə gələcək nəsillərə çatdırmaq və ictimaiyyət arasında təbliğini genişləndirməkdir.

Nəsimi rayon icra hakimiyyəti başçısının müavini Anar Tağıyev muzeylə tanışlıq zamanı bildirib ki, Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğunun təhlükə qarşısında qaldığı bir dövrdə Ermənistanın işğalçılıq siyasəti nəticəsində, erməni millətçiləri azərbaycanlılara qarşı, müntəzəm olaraq, etnik təmizləmə və soyqırımının beynəlxalq aləmdə tanınması, Xocalı Soyqırımı və ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş digər cinayətlər haqqında tarixi ədalətin bərpa olunması, erməni cinayətkarlarının ədalət mühakiməsinə cəlb olunması və həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əvəzsiz rolu olmuşdur.

Görüşdə o da vurğulanıb ki, Prezidenti İlham Əliyev tərəfindən Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli addımların atılması prinsipiallıqla davam etdirilir.

Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən mühüm və əhəmiyyətli işlər, iri miqyaslı layihələr həyata keçirilir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" aksiyaları bu soyqırımı barədə həqiqətlərin dünya xalqlarına çatdırılmasında mühüm əhəmiyyət kəsb edir.

Muzeylə tanışlıqdan sonra Azərbaycan Respublikası Hərbi Prokurorluğunun sifarişi ilə hazırlanmış "Əsrin faciəsi" sənədli filminə baxılıb.

**Ü.ƏSGƏROV**

# Qubada Xocalı Soyqırımına həsr olunmuş tədbir keçirildi



*Dünən Quba rayon icra hakimiyyəti və YAP Quba rayon təşkilatının təşkilatçılığı ilə Xocalı Soyqırımının 25-ci ildönümü ilə əlaqədar Bəşir Səfəroğlu adına Quba Mədəniyyət Evində ümumrayon tədbiri keçirildi. Tədbirdə ilk öncə Xocalı Soyqırımı qurbanlarının, eləcə də, bütün şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.*

YAP Quba rayon təşkilatının sədri Yusif Abidov çıxış edərək bildirib ki, Xocalı Soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır: "Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin, davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb. Xalqımız tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunub. Xocalı Soyqırımı tək azərbaycanlılara yox, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

Tədbirdə çıxış edən Quba rayon prokuroru Valeh Səmədov Xocalı Soyqırımı, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti barədə həqiqətlərin dünya birliyinə çatdırılması istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası nəticəsində, artıq bir sıra dövlətlər Xocalıda törədilən qırğını soyqırımı kimi qəbul edib. Xocalı Soyqırımı bizim qan yaddaşımızdır və bu dəhşətlər gələcək nəsillərə çatdırılmalı, onların tərbiyəsində, əsl vətəndaş kimi yetişmələrində əsas prioritetlərdən biri olmalıdır.

Sonra tədbir məktəblilərin hazırladığı ədəbi kompozisiya ilə davam etdirildi.

**NƏZAKƏT**





# Sabunçu rayonunda Xocalı faciəsinin 25-ci ildönümü ilə bağlı tədbir keçirilib




Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Xocalı Soyqırımının 25-ci ildönümü ilə bağlı Sabunçu rayon icra hakimiyyəti ilə birgə tədbir keçirib.

Tədbiri giriş sözü ilə açan Sabunçu rayon icra hakimiyyətinin başçısının birinci müavini Güloğlan Məmmədov Xocalı Soyqırımının mənfur düşmənimiz olan ermənilərin tarixən xalqımıza qarşı apardıqları siyasətin davamı olduğunu bildirib. Polkovnik Rasim Şirinov çıxışında əksər xarici ölkələrin Xocalı faciəsini soyqırımı kimi tanıdıqlarını qeyd edib. Xocalı sakini Fiqurə Rüstəmova törədilmiş vəhşiliklərin yaddaşlardan silinməyəcəyini vurğulayıb. Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli Xocalı Soyqırımı dünya miqyasında soyqırımı aktı kimi tanıdılması istiqamətində həyata keçirilən işlərdən danışıb. Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev Xocalı Soyqırımının XX əsrin ən dəhşətli faciəsi olduğunu qeyd edib. Tədbirin bədii hissəsində Sabunçu rayon 311 saylı orta məktəbin özfəaliyyət kollektivləri vətənpərvərlik mövzusunda tərtib edilmiş proqramla çıxış ediblər.

**SAMİR**

# "Xocalısız 25 il"

## YAP Yevlax rayon təşkilatı Yevlax rayon icra hakimiyyətilə anım tədbiri keçirib

Dünən YAP Yevlax şəhər təşkilatı Yevlax rayon icra hakimiyyətilə Xocalı Soyqırımının 25-ci ildönümü ilə bağlı anım tədbiri keçirib. Tədbiri giriş sözü ilə şəhər mərkəzi mədəniyyət evinin drektoru Eldəniz Mustafayev açaraq bildirib ki, Ümummilli Liderimiz, böyük şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyev işğal altında olan torpaqlarımızın sülh yolu ilə azad edilməsi üçün əzmlə mübarizə aparmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu siyasəti ardıcıl və geniş şəkildə davam etdirir.





Yevlax rayon icra hakimiyyətinin başçısı Qoca Səmədov YAP Yevlax şəhər təşkilatının Xocalı Soyqırımı ilə əlaqədar elan etdiyi inşa və rəsm müsabiqələrinin qaliblərinə YAP Yevlax rayon təşkilatının fəxri fərman və qiymətli hədiyyələrini təqdim edib. Ümummilli Liderimiz Heydər Əliyev işğal altında olan torpaqlarımızın sülh yolu ilə azad edilməsi üçün əzmlə mübarizə aparmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də bu siyasəti ardıcıl və geniş şəkildə davam etdirir. Ölkə Prezidenti, dəfələrlə, birmənalı şəkildə, təkrar edib ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmamış, heç bir danışıqdan söhbət gedə bilməz.

Sonra Xocalı Soyqırımından bəhs edən teatr tamaşası nümayiş olunub, tədbir iştirakçılarına YAP Yevlax rayon təşkilatı tərəfindən hazırlanmış bukletlər paylanılıb.

YAP Yevlax rayon təşkilatının aparat rəhbəri Əli Quliyev soyqırımı haqqında geniş çıxış edərək vurğuladı ki, Xocalı Soyqırımının həlak olan şəhidlərin xatirəsinin hər zaman belə əziz tutulması xalqın mənəvi zənginliyinin və öz keçmişinə etimadla yanaşmasının nəticəsidir: "Xocalı faciəsi bir xalqa, millətə edilmiş soyqırımı olmaqla, ümumən insanlığa vurulmuş ən böyük zərbədir. Təəssüf ki, insan hüquqlarından danışan dünyanın hegemon ölkələrinin əksəriyyətində bu soyqırımı hələ də tanınmır. Amma biz inanırıq ki, ölkə Prezidenti İlham Əliyevin yürütdüyü siyasət nəticəsində, tez bir zamanda bütün dünya yüzlərlə qətliamin səbəbkarı olan qəddar, vəhşi erməni sifətini tanıyacaqdır." Tədbirdə Xocalı sakinləri Rafik Məmmədov, Aida Kərimova faciə ilə bağlı xatirələrindən söz açıblar. Sonda təşkilatçılar baş vermiş bu cür qətliama görə Xocalı sakinlərinə, ümumilikdə, toplantı iştirakçılarına başsağlığı verərək, onlara güclü və inamlı olmağı arzuladılar.

**R.NURƏDDİNOĞLU**

# YAP Ağcabədi rayon təşkilatında Xocalı faciəsi anılıb

Ağcabədidə Xocalı Soyqırımının 25-ci ildönümünə həsr edilmiş silsilə tədbirlər davam edir. YAP Ağcabədi rayon təşkilatının inzibati binasında keçirilən növbəti tədbirdə Xocalı şəhidlərinin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş soydaşlarımızın xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.



Tədbiri giriş sözü il açan YAP Ağcabədi rayon təşkilatının sədr müavini bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bəşər tarixində görünməmiş ən qanlı soyqırımı törədilib: "O zamandan 25 il ötməsinə baxmayaraq, baş vermiş faciə hər bir azərbaycanlının yaddaşında silinməz izlər buraxmış, hamı həmin soyqırımının günahsız qurbanlarının ruhunun dinclik tapacağı günü-Qarabağın işğaldan azad ediləcəyi günü səbirsizliklə gözləyir. Bugünkü tədbirə rayon ərazisində yerləşən hərbi hissənin əsgərləri də dəvət olunub. İnanırıq ki, bu zalda əyləşən gənc əsgərlərimiz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmrinə müntəzir olaraq, Azərbaycanın üçrəngli bayrağını Dağlıq Qarabağda dalğalandırmaq əzmindədirlər. Əsgərlərimizin rəşadətini ötən ilin aprel ayında bir neçə gün davam edən döyüşlərdə görmüşük".



Tədbirdə "Qarabağ Müharibəsi Əlilləri Şəhid Ailələri İctimai Birliyinin sədri, I qrup Qarabağ Müharibəsi əlili İsmayıl Məhərrəmov, YAP Ağcabədi rayon təşkilatının qadınlar şurasının sədri Radə Qafarova, N saylı hərbi hissənin əsgəri Bəhruz Qədirli, Ağcabədi rayon icra hakimiyyətinin əməkdaşı Təyyar Hacıyev, YAP Ağcabədi rayon təşkilatının sədr müavini Teymur Rəhimov çıxış ediblər.

Tədbirdə yaradıcı ziyalılardan Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü Məhsəti Musa, Azərbaycan Yazıçılar Birliyinin üzvü Tahirə İsaqızı çıxış etmiş və eyni zamanda, Xocalıya həsr etdikləri şeirlərini oxuyublar.

Tədbirdə Şair Gündüz Sevindiyin rəhbərlik etdiyi Heydər Əliyev Mərkəzi nəzdində fəaliyyət göstərən "Həvəskar aktyorluq və bədii qiraət kursu"nun tələbələrinin ifasında Xocalı şəhidlərinin əziz xatirəsinə həsr olunmuş ədəbi-bədii şeir kompozisiyası, Ağcabədi şəhər 5 saylı uşçaq bağcasının uşaqlarının ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Tədbirin sonunda Xocalı Soyqırımına həsr olunmuş film nümayiş etdirilib.

**ZÜMRÜD**

# "Azərbaycan və dünya incəsənətində soyqırımı mövzusu"



Dünən "Azərbaycanlılara qarşı soyqırımların tədqiqi" komissiyasının və AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun birgə təşkilatçılığı ilə Xocalı Soyqırımının 25-ci ildönümünə həsr olunan tədbir keçirilib. Əvvəlcə iştirakçılar akademiyanın foyesində Xocalı Soyqırımına həsr edilən rəsm sərgisi ilə tanış olublar. Sərgidə AMEA əməkdaşlarının 15 əsəri nümayiş olunub.

Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında təşkil olunan tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan xalqının başına gətirilən tarixi faciələrdən, Xocalı Soyqırımından söz açıb, bu faciəyə ilk dəfə hüquqi-siyasi qiymətin yalnız xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra verildiyini söyləyib. Akademik İ.Həbibbəyli Xocalı Soyqırımının dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun, xüsusilə, fondun vitse-prezidenti Leyla Əliyevanın xidmətlərini xüsusi qeyd edib. Bildirib ki, Leyla Əliyevanın təşəbbüsü ilə başlanan "Xocalıya ədalət!" kampaniyasının uğurla aparılması sayəsində, artıq bir sıra ölkələrdə Xocalı faciəsi soyqırımı aktı kimi tanınır. Tədbir çərçivəsində "Azərbaycan və dünya incəsənətində soyqırımı mövzusu" kitabının təqdimatı da keçirilib. AMEA-nın vitse-prezidenti təqdim edilən kitabın beynəlxalq ictimaiyyəti, o cümlədən, türk dünyasını Xocalı Soyqırımı barədə daha ətraflı məlumatlandırmaq baxımından böyük əhəmiyyətə malik olduğunu bildirib. Tədbirdə Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadənin "Xocalı faciəsi təsviri sənətdə", Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Mərziyyə Nəcəfovanın "Xocalı Soyqırımı: poetik fəryaddan ümumbəşəri ittihama" və Memarlıq və İncəsənət İnstitutunun ümumi işlər üzrə direktor müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Xəzər Zeynalovun "Azərbaycan və dünya incəsənətində soyqırımı mövzusunun tədqiqatı" adlı məruzələri dinlənilib.

**NƏZAKƏT**

# Astanada "Soyqırımlarından azad dünya naminə" foto-sərgisi açılıb




Qazaxıstanın paytaxtı Astanada "Soyqırımlarından azad dünya naminə" foto-sərgisi açılıb. Azərbaycanın Qazaxıstandakı səfirliyinin təşkil etdiyi tədbirə həmin ölkənin parlamentinin deputatları, o cümlədən, Azərbaycan Milli Məclisinin üzvləri, Azərbaycan-Qazaxıstan Dostluq Qrupunun rəhbəri Adil Əliyev, həmin qrupun üzvü Naqif Həmzəyev, KİV nümayəndələri, ziyalılar qatılıblar. Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov 22 fevral tarixinin bütün Avropada cinayət qurbanları günü kimi qeyd olunduğunu deyib.

Səfir qazaxıstanlı yazıçı Oljas Suleymenovun sözlərini xatırladaraq, heç kimin bu kimi hadisələrin yenidən təkrarlanmasını istəmədiyini söyləyib. "Holokostdan sonra bütün dünya düşünürdü ki, soyqırımı kimi cinayətdən xilas oldu. Əfsus ki, sonrakı hadisələr, o cümlədən, Azərbaycanda 1992-ci ildə törədilən Xocalı Soyqırımı sübut etdi ki, bu cür hadisələrdən heç kim sığortalanmayıb". Sonra soyqırımı qurbanlarının xatirəsinə şamlar yandırılıb.

**S.FEYRUZOV**



# YAP Astara rayon təşkilatında Xocalı Soyqırımı qurbanları anılıb

Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatında “Xocalı Soyqırımı insanlığa qarşı törədilmiş dəhşətli cinayətdir” mövzusunda anım tədbiri keçirilib. Tədbirdə Xocalı Soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov açaraq, erməni vandalizmdən və Xocalı Soyqırımının fəsadlarından danışıb. Qeyd edib ki, 1992-ci ildə Azərbaycanda yaranmış acınacaqlı durum, özbaşınalıq müstəqilliyimizi təhlükə altında qoymuşdu. Ermənilər yaranmış vəziyyətdən yararlanaraq, rayonlarımızı işğal etməyə başladılar. Həmin dövrdə Azərbaycanda iqtidarda olan şəxslər bütün bunlara göz yumaraq, ərazilərimizin işğalına zəmin yaradırdılar. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələrinin Xocalıda həyata keçirdikləri soyqırımın günahkarları gec-tez qanun qarşısında cavab verməli olacaqlar. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində, artıq bir sıra dövlətlər və həmin dövlətlərin parlamentləri Xocalı Soyqırımını tanıyıblar.

Tədbirdə digər çıxış edənlər Xocalının Azərbaycan xalqının qan yaddaşı olduğunu vurğulayaraq, bildiriblər ki, qısa zamanda bütün dünya Xocalı Soyqırımını tanıyacaq, erməni vəhşiliyinin iç üzü bir daha ifşa olunacaq və millətimizə qarşı bu ağır bəşəri cinayəti həyata keçirənlər öz layiqli cəzalarını alacaqlar.

***S.FEYRUZOV***

# Xaçmazda Xocalı Soyqırımı anıldı



Dünən YAP Xaçmaz rayon təşkilatı Xocalı faciəsinin 25-ci ildönümü ilə əlaqədar rayonun Tarix Diyarşünaslıq Muzeyində anım tədbiri keçirib. Tədbir iştirakçıları ilk öncə, Xocalı Soyqırımında həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad edib.

Tədbiri giriş sözü ilə Xaçmaz rayon icra hakimiyyəti başçısının müavini İlhamə Nəzərova açaraq, Xocalı Soyqırımının insanlığa qarşı törədilmiş ən dəhşətli cinayət olduğunu bildirib. Qeyd edib ki, Ermənistan rəhbərliyi bu Soyqırımını törətməklə xalqımızı qorxutmaq və vahimə içində saxlamaq, onun mübarizə əzmini qırmaq məqsədi güdüb. Lakin bu hadisələr Azərbaycan xalqının əzmini qıra bilməyib: “Bəşər tarixinin ən qanlı cinayətlərindən olan Xocalı faciəsindən 25 il keçir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində baş verənlər Azərbaycan xalqının yaddaşından heç zaman silinməyəcək. Həmin gün Ermənistan hərbçiləri bütün dünyanın gözü qarşısında Azərbaycanın bu qədim şəhərində Soyqırımı törədib, heç bir günahı olmayan yüzlərlə dinc insanı qətlə yetiriblər”.



İ.Nəzərov onu da vurğulayıb ki, bu soyqırımına siyasi və hüquqi qiymət ilk dəfə Ulu Öndər Heydər Əliyev tərəfindən verilib. Anım mərasimində qeyd olunub ki, ermənilərin törətdiyi Xocalı Soyqırımı insanlığa və bəşəriyyətə qarşı cinayət olub. Prezident İlham Əliyevin ardıcıl və məqsədyönlü siyasəti sayəsində Xocalı həqiqətləri Azərbaycan xalqının başına gətirilən müsibətlər dünya ictimaiyyətinin diqqətinə çatdırılacaq və bu vəhşilik real qiymətini alacaqdır. Sonda Xocalı Soyqırımına həsr olunmuş video-xronika nümayiş olunub.

***R.KAMALQIZI***

# Qusarda Xocalı Soyqırımı qurbanlarının xatirəsi anılıb



Qusar rayon Heydər Əliyev Mərkəzində Xocalı Soyqırımının 25-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib. Tədbirdə Qusar rayon icra hakimiyyətinin başçısı Şair Alxasov çıxış edərək, fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədilən kütləvi qırğının erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdikləri növbəti soyqırımı olduğunu vurğulayıb: “Bu soyqırımının xalqımıza qarşı planlı şəkildə gerçəkləşdirilmiş terror, deportasiya və etnik təmizləmə siyasətinin tərkib hissəsi kimi, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş ən ağır cinayətdir. Xocalı faciəsinə ilk hüquqi-siyasi qiymət Ulu Öndər Heydər Əliyev tərəfindən verilib. Xalqımıza qarşı törədilən qətliamların dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında Azərbaycan Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondu əvəzsiz xidmətlər göstəriblər. Ali Baş Komandanın rəhbərliyi ilə dədə-baba yurdlarımıza qayıdacağımız gün uzaqda deyil”.

Tədbirdə, rayon Qarabağ Əlillər Cəmiyyətinin sədri Canəli Hörmətov və ağsaqqal Sənan Xəlilov çıxış edərək, Xocalı Soyqırımından 25 il keçdiyini qeyd etmiş, həmin gün insan qanına susamış erməni cəlladlarının bütün dünyanın qarşısında Azərbaycanın bu qədim şəhərində soyqırımı törətdiklərini, heç bir günahı olmayan yüzlərlə dinc insanı amansızlıqla kütləvi qətlə yetirildiklərini söyləyib.

Tədbirin sonunda Xocalı Soyqırımına həsr olunmuş xronoloji film nümayiş olunub.

***NƏZAKƏT***

# Berlində Azərbaycan və Almaniya arasında ikitərəfli siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib




Cari ilin 22-23 fevral tarixlərində Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov ikitərəfli siyasi məsləhətləşmələrin növbəti raundunun keçirilməsi məqsədilə Almaniyada işçi səfərdə olub. Bu məsləhətləşmələr çərçivəsində X.Xələfov Almaniya Xarici İşlər Nazirliyinin dövlət katibi Markus Ederer və Almaniya Federal Kansler Administrasiyasında Mərkəzi, Şərqi və Cənub-Şərqi Avropa, eləcə də, Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri ilə ikitərəfli münasibətlər şöbəsinin müdiri Knut Abraham-la görüşlər keçirib.

Görüşlərdə Azərbaycan və Almaniya arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və perspektivləri, ölkəmizin yerləşdiyi regionda yeri və rolu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun həllinə Almaniyanın verə biləcəyi töhfə, Xəzər bölgəsi və regional məsələlər, eləcə də, qarşılıqlı maraq kəsb edən digər beynəlxalq mövzular üzrə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşlərdə Azərbaycanın Almaniya üçün vacib və etibarlı tərəfdaş olduğu qeyd olunub və iki ölkə arasında olan siyasi dialoq və iqtisadi əməkdaşlığın yüksək səviyyəsindən məmnunluq ifadə edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyaya səfərlərinin ikitərəfli münasibətlərin inkişafı baxımından vacibliyi qeyd edilib və belə yüksək səviyyəli səfərlərin qarşılıqlı surətdə həyata keçirilməsi üçün müvafiq tədbirlərin görülməsi razılaşdırılıb.

X.Xələfov Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və modernləşdirilməsi istiqamətində həyata keçirilən islahatları qeyd edərək, ölkəmizdə mövcud olan əlverişli investisiya və biznes mühitinin Almaniya şirkətləri üçün də cazibədar ola biləcəyini vurğulayıb. O, Azərbaycanın Almaniya ilə turizm, kənd təsərrüfatı, sənaye, təhsil və digər sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu qeyd edib.

Nazir müavini Almaniyanın Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi dəstəyə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həllinə töhfə vermək üçün səylərinə görə minnətdarlıq edib.

***SAMİR***

# Azərbaycanda müxalifət partiya sədrlərinin psixoloji PORTRETLƏRİ!

## *Partiya sədri siyasi xarizmaya malik olmalıdı, daxili düşüncələrini zahirinə çıxarmamalıdır*



Azərbaycanda fəaliyyət göstərən dağıdıcı müxalifət partiyalarının sədrləri zaman-zaman səsləndirdikləri anormal fikirləri, bəyanatları və atdıqları addımlarla ən azı mətbuatın diqqətini özlərinə cəlb etməyə çalışırlar. Əksər hallarda atılan addımlar, "siyasi mübarizəyə" hesablanmış bəyanatlar əks-effekt verib. Heç şübhəsiz ki, bu məsələdə partiya adından son qərarları verən və bəyanatların əsas müəllifi olan sədrlər daha çox məsuliyyət daşıyırlar. Hər şeydən öncə siyasətçi atdığı addımları atarkən düşünməli, hadisələrə, baş verən ictimai-siyasi proseslərə təmkinli, obyektiv, qərəzsiz, məntiqli münasibəti ilə seçilməlidir. Bu, həm də psixoloji məsələdir. Baş verən hadisələrə çaş-baş münasibəti ilə seçilən bir sıra müxalif partiya sədrlərinin psixoloji durumu həqiqətənmi yeirndədir? Uzun illərdir dərin depressiya, xaos içərisində olan partiyaların və onların sədrlərinin bu gün hadisələrə doğru-dürüst yanaşmaq imkanları varmı? Yaxud bu, mümkün ola bilərmi? Ümumiyyətlə, Azərbaycanda fəaliyyət göstərən müxalifət partiyalarının sədrlərinin psixoloji portretini necə cıza bilərik?

İsa Qəmbər hazırda "Strateji-Düşüncə Mərkəzi" adlı qurumun sədridir, Müsavatın eks-başqanıdır. Uzun illər Müsavata başqanlıq edən İ.Qəmbər rəhbərlik etdiyi partiyaya heç bir uğur gətirə bilmədi. Müsavatın gələcək perspektiv və imkanlarını, strategiyasını müəyyənləşdirmək əvəzinə, partiyanın keçmişini qabartmağa, bununla yaşamağa üstünlük verdi. Onun başqanlıq dönəmində Müsavat ciddi siyasi qələbə qazana bilmədi, partiyanın sosial bazası tamamilə tükəndi, kütləvi istefalar, aparılan uğursuz, intriqant siyasət, şəxsi ambisiyaların önə çəkilməsi bu qurumu dağılmaq problemi ilə üzüzə qoydu. İ.Qəmbər, bu illər ərzində, mətbuata açıq olmadı, daha çox dağıdıcı müxalifətin nəzarətində olan media orqanları ilə əlaqə saxladı. İllər boyu "demokratiya" və "mətbuat azadlığı"ndan danışan İ.Qəmbərin müstəqil mətbuatdan qorxub qaçması, müstəqil jurnalistlərin suallarını cavablandırmaması danılmaz faktdır. 2003-cü ilin oktyabrında dağıdıcı müxalifətin şəhərimizdə qırğınlar törətməyə cəhd etməsi, dükanlara, mağazalara hücum etmələri İ.Qəmbərin psixolojli portretinin tam cizgilərinə işıq salmış olur. "Siyasi mübarizə"ni zorakılıqda görən İ.Qəmbər evinin qapısını bağlayıb qaranlıq otaqda oturmuşdu.

Əli Kərimli AXCP sədridir, bu partiya sədri üçün müxalifətçilik dövlət məmurları haqqında şantaj xarakterli, təhqir və söyüş dolu piar aparmaqdan ibarətdir. Müxalifətdə "xəyanət simvolu" kimi tanınan Ə.Kərimli lideri Əbülfəz Elçibəyi öldürməkdə də günahlandırılır. Hazırda bu adamın yarıtmaz addımları nəticəsində, onlarla gənc ölkə qanunlarını məqsədli şəkildə pozduqlarına görə məsuliyyətə cəlb olunublar. Ə.Kərimli düşünür ki, cəbhəçi cinayət törədə bilər, lakin məsuliyyətə cəlb oluna bilməz, cəbhəçi polisə müqavimət göstərə bilər, rəsmi şəxslər haqqında şantaj xarakterli materiallar yaya bilər, insanları provokasiyaya çəkə bilər, ancaq qanun qarşısında cavab verə bilməzlər. Daha çox "termin"lərlə danışmağa üstünlük verən Ə.Kərimli partiya sədrləri arasında ən az savadı olan, birisidir. Heç bir dil bilgisi yoxdur, mütaliədən tamamilə uzaqdır. Hadisələrə aqressiv münasibəti ilə seçilir. Sonunu düşünmədən istənilən adamı xəyanətdə ittiham edərək, onu təhqir hədəfinə çevirir. Siyasi xarizması yoxdur. Kim onun kimi düşünmürsə, deməli, "satqın"dır, "yalançı"dır, "vətən xaini"dir.

Pənah Hüseyn elə bir həddə emosionaldır ki, əgər kimsə keçmiş baş naziri qıcıqlandırsa, arxasını fikirləşmədən qarşısındakı adamı rahatlıqla söyə bilər. Xüsusilə, tanımadığı jurnalist qarşısında öz eqolarını sığallamaq üçün ona "burda mənəm, Bağdadda kor xəlifə" prinsipiylə baxa bilir. Siyasi xarizmadan tamamilə məhrumdur. 1990-cı illərin siyasi xaosunu xatırladır, beyinlərdə bu yaddaşla qalıb. Cəmiyyətdə özünə, onun nə vaxtsa siyasət meydanında "diriləcəyinə" inanların sayı sıfıra bərabərdir. Səsləndirdiyi fikirlərin müzakirə yaratmaq bacarığı yoxdur.

Sərdar Cəlaloğlu qətiyyən siyasət adamı deyil. Görkəm etibarilə ciddi görünməyə çalışsa da, amma çox emosionaldır. Hətta qarşısındakı jurnalist ADP sədri haqqında düşünə bilər ki, istənilən sualla S.Cəlaloğlunu özündən çıxarmaq mümkündür. Siyasi fəaliyyətdən daha çox ədəbi və dini məsələlərlə gündəmə gəlməyə çalışır.

Siyasətçilər soyuqqanlı, təmkinli, səbrli və daxili düşüncələrini zahirə çıxarmamalıdırlar. Hətta düşünürük ki, özünə qarşı gözlərinin qarşısında sui-qəsd olsa belə, siyasətçi bunu daş kimi bərk, buz parçası soyuqluğunda saxlamalıdır. Bir növ siyasətçi insan tipinin ən sərt amorf halı olmalıdır. Ümumilikdə isə, insanlar tərəfindən qəbul edilmiş bir tərif var ki, siyasətdə az səmimiyyət, çox soyuqluq məqbuldur. Bizim dağıdıcı müxalifət partiyalarının sədrləri bütün üstün keyfiyyətlərdən məhrumdurlar. Çünki spesifik siyasi addımlarla, eləcə də, xarakterik xüsusiyyətlərlə lider kimi tanına və insanları buna inandıra bilmirlər.

**SAMİR**

# Müxalifət şansını itirib

### *Əli Kərimli AXCP sədrliyindən getməyə məcbur ediləcək*

Hazırkı mərhələdə diqqəti çəkən əsas məqamlardan biri də müxalifət düşərgəsində partiya funksionerlərinin bir-birinə qarşı sərt ittihamlarla çıxış etmələridir. Mövcud qarşıdurmanı nəzərə alan əksər analitiklər müxalifət düşərgəsindən yeni qopmaların baş verəcəyini istisna etmirlər. Xüsusilə də, Müsavat və AXCP kimi dağıdıcı partiyalardan kütləvi qopmalar və parçalanmaların daha geniş xarakter alacağını qeyd edirlər. Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov da "SƏS" qəzetinə açıqlamasında bildirdi ki, müxalifət düşərgəsində təmsil olunan partiyaların dağılacağı realdır. O, bunun səbəbini Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı və bu kimi digər dağıdıcı ünsürlərin xalqa, dövlətə zidd siyasət aparmaları ilə əlaqələndirdi: "Tam əminliklə demək olar ki, yaxın vaxtlarda Ə.Kərimli AXCP sədrliyindən istefa verməyə məcbur ediləcək. Çünki artıq sıravi cəbhəçilər mövqelərini tam şəkildə ortaya qoyublar. Bu gün müxalifət düşərgəsində olan partiyalara yığışan şəxslər bir-birinə qarşı mehriban düşmən münasibəti bəsləyir. Yəni bu gün müxalifçilər biri digərinə qarşı yaxşı olsalar da, sabah düşmənə çevrilirlər. Bunun da səbəbi müxalifət rəhbərlərinin şəxsi ambisiyalarının olması və bir-birini qəbul etməməsi ilə bağlıdır. Təbii ki, birlik olamayan yerdə inamdan, mehribanlıqdan və irəliləyişdən söhbət gedə bilməz".

T.Novruzov onu da bildirdi ki, müxalif blok və qurumların dağılmasının başlıca səbəbi liderlərin müstəqil olmamaları və bir-birinə qarşı olan düşməncilik münasibətləridir: "Müxalifət liderlərinin bir-birinə qarşı olan düşmənçilik münasibləri onlar tərəfdən yaradılan blok və qurumların dağılmasını şərtləndirən əsas amillərdən biridir. İddialar müxalif partiyaların birləşməsinə yox, dağılmasına gətirib çıxarır. Birmənalı şəkildə, demək olar ki, müxalifətin ümumi güc mərkəzi yoxdur. Bu şansın olması da mümkün deyil. Bir sözlə, hər zaman müxalifət məğlubiyyətə düçar olub və olacaq da".

T.Novruzovun sözlərinə görə, müxalifətin mövcudluğu cəmiyyət üçün maraqlı deyil: "Əgər adını siyasi qüvvə qoyanlar normal təşəbbüslər, proqramlar irəli sürə bilmirsə və cəmiyyəti cəlb edə biləcək normal ideyalarla çıxış edə bilmirsə, o zaman həmin partiyaların cəmiyyət tərəfindən heç bir siyasi dəstəyi də ola bilməz. Bugünkü müxalifətin bu cür çıxılmaz bir vəziyyətə düşməsinin səbəbi, məhz müxalifətin yersiz hərəkətləri, yalan vədləri və şəxsi ambisiyalarının olması ilə bağlıdır. Artıq demək olar ki, müxalifətin sonu yaxınlaşmaqdadır. Bu baxımdan, yaxış olardı ki, müxalifət partiya rəhbərləri papaqlarını qarşılarına qoyub, düşünsünlər ki, bu cür çıxılmaz vəziyyətdən necə çıxmaq olar? Yəni bir-birini qırmağı yox, partiyalarını yeniləşdirməyə çalışmalıdırlar. Əks-təqdirdə, müxalifət partiyaları tamamilə mövcudluqlarını itirəcəklər".

**GÜLYANƏ**

# Politoloq: "Qarabağ danışıqlarının nəticəsi Rusiyanın təzyiqindən asılıdır"

***"Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həllində aktivləşməsinə səbəb qoşunların təmas xəttində yarana biləcək gərginliyin qarşısının alınmasıdır. Moskva qoşunların təmas xəttində gərginliyin yaranacağını, eləcə də Azərbaycanın yeni taktika seçdiyini hiss edir". Bunu SİA-ya politoloq Mübariz Əhmədoğlu Moskvada başlanan Qarabağ müzakirələrini şərh edərkən deyib.***

Politoloq bildirib ki, Moskva danışıqlarının həyata keçirilməsinin digər səbəbi ATƏT-in İrəvan ofisinin Azərbaycandakı fəaliyyətini yenidən bərpa etməkdir: "Bilirsiniz ki, ötən ilin dekabr ayının əvvəllərində Azərbaycan ATƏT-in İrəvan ofisinin ölkəmizdəki fəaliyyətinə icazə vermədi. Ölkəmiz ATƏT-in İrəvan ofisinin nizamnamədə nəzərdə tutulmayan işlə məşğul olduğunu əsaslandırsa da, bu məsələ Rusiya ilə bərabər Ermənistanı da narahat edir. Hətta Rusiyanın XİN başçısı Lavrov izahatında ofisin rəhbərinin Rusiya vətəndaşı olduğunu da bildirdi. Bu baxımdan hesab edirəm ki, Azərbaycanın ATƏT-in İrəvan ofisinin fəaliyyətinin dayandırılmasında həyata keçirdiyi yeni diplomatik yanaşma Rusiyanı məsələnin həllində aktivləşməyə sövq edib. Qonşu ölkə bilir ki Azərbaycan Ermənistan təzyiq etmək üçün istənilən variant tapa bilər ki, burada hərbi variant istisna deyil. Rusiya həmçinin anlayır ki, Ermənistan hərbi təxribata getsə, ağır cavab alacaq. Buna görə də, Lavrov Moskvada Azərbaycan və Ermənistan XİN başçılarının görüşün təşkil etmək istəyir. Bu görüş baş tutduqdan sonra Ermənistan prezidenti Sarkisyanın da Moskvaya səfəri razılaşdırılıb".

M. Əhmədoğlunun sözlərinə görə, Rusiya danışıqlara razılıq verməyən tərəfin Ermənistan olduğunu yaxşı bilir: "Bu baxımdan Rusiyanın məqsədi münaqişənin həllində aktivləşmək, prezidentlərin üçtərəfli formatda görüşünü təşkil edərək Sankt-Peterburqda əldə olunan razılaşmaları davam etdirməkdir. Əgər Ermənistan Sankt -Peterburqda əldə olunan razılaşmaları davam etdirsə, o zaman nəticə əldə olunacaq. Artıq beynəlxalq təzyiqlər nəticəsində Ermənistanın mövqeyində dəyişikliklər hiss olunur. Bu baxımdan Dağlıq Qarabağın praktik həlli mərhələsi başlanmalıdır. İlkin növbədə ya Dağlıq Qarabağ ətrafı rayonlar işğaldan azad olunmalı və ya da statusu müəyyənləşməlidir. Hər şey Rusiyanın təzyiqindən asılıdır.

# İşgəncənin qarşısının alınması və əlilliyi olan şəxslərin hüquqları üzrə komitə

***BMT-nin Baş Məclisi tərəfindən 2006-cı il 13 dekabr tarixində qəbul edilmiş "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya və bu sənədin Fakültativ Protokolu 2007-ci ilin 30 mart tarixindən üzv dövlətlərə imzalamaq üçün açıq elan edilmiş və 2008-ci il 3 may tarixində qüvvəyə minmişdir.***

Tədqirəlayiq haldır ki, Müvəkkilin təklifi nəzərə alınmaqla və ən əsası dövlətimizin bu qəbildən olan insanlara diqqəti nəticəsində Azərbaycan Respublikasının 2008-ci il 2 oktyabr tarixli Qanununa əsasən, hər iki sənəd müvafiq bəyanatla ratifikasiya edilmiş və ölkəmizə münasibətdə 28 yanvar 2009-cu il tarixdən qüvvəyə minmişdir.

"İnsan hüquqlarına dair beynəlxalq əməkdaşlıq" kitabında göstərir: "Azərbaycan regionda bu mühüm Konvensiyanı ratifikasiya edən ilk ölkə olaraq, əlilliyi olan insanların hüquqlarına hörmət edilməsi və onların qorunması istiqamətində götürdüyü öhdəliyi bir daha təsdiq etmiş, bu sahədə regionun digər ölkələri üçün nümunə olmuşdur. Əsas məqsəd əlilliyi olan bütün şəxslər tərəfindən bütün insan hüquqlarının və əsas azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini təşviq, müdafiə və təmin etməkdən, eləcə də, onların ləyaqətinə hörmət edilməsini dəstəkləməkdən ibarət olan bu Konvensiya təkcə dövlətlərin əlilliyi olan insanlara qarşı ayrı-seçkiliyə yol verməməsi öhdəliyini deyil, həmçinin, onların cəmiyyətdə əsl bərabərlikdən bəhrələnə bilinməsi məqsədilə əlverişli şəraitin yaradılması üçün dövlətlər tərəfindən atılmalı olan addımları nıüəyyən edir.

Sözügedən Konvensiyanın tələblərinə uyğun olaraq, Azərbaycan hökumətinin qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi ilə bağlı həyata keçirilmiş tədbirlər barədə yerdəyişmə azadlığı və vətəndaşlıq, müstəqil həyat tərzi və yerli icraya cəlb olunma, fərdi hərəkət etmək imkanı, fikir və etiqadların sərbəst ifadə olunması və informasiyadan istifadə imkanları, şəxsi həyatın toxunulmazlığı mövcud çətinliklər və bunların həlli ilə bağlı təkliflər öz əksini tapmışdır.

Tədqirəlayiq haldır ki, 2014-cü il 31 mart - 11 aprel tarixlərdə Cenevrədə BMT-nin Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəsinin 11-ci sessiyasında adıçəkilən Konvensiyanın müddəalarının icrası sahəsində görülən işlərə dair Azərbaycan hökumətinin ilk hesabatı uğurla təqdim edilmiş və müsbət qiymətləndirilmişdir.

Daha sonra BMT-nin müvafiq komitəsi tərəfindən ölkəmizin sözügedən Konvensiyaya dair dinlənilmiş ilk hesabatı ilə əlaqədar Azərbaycan hökumətinə 57 bənddən ibarət tövsiyələr göndərilmişdir. Yeri gəlmişkən, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı, Milli Məclisin Sosial Siyasət Komitəsinin, aidiyyəti dövlət qurumlarının, QHT və KİV nümayəndələrinin iştirakı ilə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya dair Azərbaycan hökumətinin ilk hesabatı ilə bağlı BMT-nin Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəsinin tövsiyələrinin birgə müzakirəsi keçirilmişdir.

kil BMT-nin İşgəncələrin qarşısının alınması üzrə Alt Komitəsi (SPT), İşgəncələrin Qarşısının Alınması üzrə Avropa Komitəsi (CPT), o cümlədən, İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiya (APİ) ilə əməkdaşlıq edir. Onu da qeyd etmək lazımdır ki, Milli-Preventiv Qrupun fəaliyyətinə dair məruzələr əməkdaşlıq çərçivəsində həmin qurumlara göndərilir.

2011-ci ilin fevral ayında İsveçrənin Cenevrə şəhərində İşgəncələrin Qarşısının Alınması üzrə Assosiasiyanın (APT) Ümumdünya Qlobal Forumu keçirilmişdir. Həmin forum çərçivəsində SPT və CPT nümayəndələrinin iştirakı ilə dörd qrupda aparılan müzakirələrdə Ombudsman Aparatının əməkdaşı da çıxış etmiş, ölkəmizdə MPM-in yaranması, bu sahədə fəa-






*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

BMT-nin Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəsinə 2011-ci ildə ilk dövri hesabat göndərilmişdir.

Qeyd etmək lazımdır ki, Müvəkkilə BMT-nin uşaq hüquqları ilə bərabər əlilliyi olan şəxslərin hüquqları üzrə də məsul qurumu olan YUNİSEF-in Azərbaycandakı Nümayəndəliyini birgə imzaladıqları 2013-cü il üzrə İş Planına uyğun olaraq "Ombudsmanın işinə dəstək"" layihəsi həyata keçirilmişdir. Həmin layihə çərçivəsində Ombudsmanın ilk əlavə hesabatı hazırlanaraq, 2013-cü ilin avqust ayında BMT-nin Əlilliyi olan şəxslərin hüquqları üzrə Komitəsinə təqdim edilmişdir. Hesabatda bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi, əlilliyi olan qadınlar və əlilliyi olan uşaqlar, maarifləndirici-tərbiyəvi iş, istifadə imkanları, yaşamaq hüququ, risk vəziyyətləri və fövqəladə humanitar vəziyyətlər, qanun qarşısında bərabərlik, ədalət məhkəməsinin təmin olunması, azadlıq və şəxsi toxunulmazlıq, işgəncələrdən və qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və cəza növlərindən azad olma, istismardan, təcavüzdən və təhqirdən azad olma, şəxsi bütövlüyün qorunması, nilmiş ilk hesabatı ilə əlaqədar

Adıçəkilən kitabda qeyd edilir ki, işgəncə əleyhinə BMT Konvensiyasının Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamı ilə Mili-Preventiv Mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir. Sözügedən funksiyadan irəli gələn vəzifələrin daha səmərəli icrası məqsədi ilə Müvəkliyyət, müvafiq milli qanunvericiliyə edilmiş əlavə və dəyişikliklər, bu sahədə görülmüş işlər barədə ətraflı məlumat vermişdir.

2011-ci ilin noyabr ayında Bakıda keçirilən APT-nin 6-cı tematik seminarında Azərbaycan Ombudsmanı, habelə, MPQ-nin rəhbəri də iştirak etmiş, MPM qismində çıxış edən Ombudsman təsisatının bu sahədə fəaliyyəti barədə ətraflı məlumat verilmişdir. 2011-ci ilin dekabr ayında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova ölkəmizdə səfərdə olan Avropa İşgəncələrin Qarşısının Alınması üzrə Komitəsinin (CPT) üzvləri - nümayəndə heyətinin rəhbəri Haritini Diplanı, İsveçrənin Milli-Preventiv Mexanizminin rəhbəri Jan-Pyer Restellinini və CPT Katibliyinin əməkdaşı Julyen Attuil-Kayseri qəbul etmişdir. CPT-nin üzvləri təmsil etdikləri qurumun fəaliyyəti, iş prinsipləri və monitorinqləri barədə ətraflı məlumat vermişlər. Ombudsman qonaqların suallarını cavablandıraraq, bu sahədə hüquqi maarifləndirmə işləri, polis və ədliyyə əməkdaşları üçün təşkil etdikləri treninq-seminarlar, həmçinin, müvəqqəti saxlama təcridxanalarının, penitensiar müəssisələrin, psixiatriya xəstəxanalarının və digər sosial obyektlərin standartlara uyğunlaşdırıldığını diqqətə çatdırmışdır. O, məruzələrini, təsisatda hazırlanmış çoxsaylı hüquqi nəşrləri və plakatları qonaqlara təqdim etmişdir.

2015-ci ilə qədər ifrat yoxsulluğu yarıbayarı azaltmaqdan HİV/AİDS-in yayılmasını dayandırmağa və ümumi ibtidai təhsilin təmin edilməsinə kimi hədəfləri əhatə edən səkkiz Minilliyin İnkişaf Məqsədi (Millenium Development Goals MDG) dünya ölkələri və dünyanın aparıcı təşkilatları arasında razılaşdırılmış fəaliyyət planını təşkil edir.

2015-ci ilin aprel ayında Müvəkkil ölkəmizdə səfərdə olan BMT-nin İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitəsinin (SPT) nümayəndə heyətinin rəhbəri Aişə Şujun Muhammədi və onu müşayiət edən həmin qurumun üzvlərini iki dəfə qəbul etmişdir. İlk görüşdə Ombudsman MPM-in fəaliyyəti, görülmüş işlər, Milli-Preventiv Qrupun (MPQ) saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə, o cümlədən, cəzaçəkmə müəssisələrinə, müvəqqəti saxlama yerlərinə, təhsil, səhiyyə və sosial obyektlərə həyata keçirdiyi başçəkmələr, bu sahədə qanunvericiliyə və müvafiq dövlət qurumlarına verilmiş təklif və tövsiyələr, hüquqi maarifləndirmə tədbirləri ilə bağlı ətraflı məlumat vermişdir.

Görüşdə fikir mübadiləsi aparılmış, MPM-in müsbət təcrübəsi və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuş, qonaqlara Azərbaycan MPM-in fəaliyyətinə dair illik hesabatları təqdim edilmişdir. Keçirilmiş ikinci görüşdə SPT nümayəndə heyətinin saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə həyata keçirdikləri başçəkmələr üzrə müşahidələri, habelə, müvafiq tövsiyələri ilə bağlı yekun müzakirələr aparılmışdır. Fikir mübadiləsi şəklində davam edən görüşdə Ombudsman MPM qismində fəaliyyətinin inkişaf etdiyi vurğulanmış, gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuş, ölkə səfərinin yekununa dair təklif və tövsiyələrin veriləcəyi bildirilmişdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 25 fevral


## Sevgilisinə pul buketi bağışladı



Çində gənc oğlan sevdiyi qıza qeyri-adi hədiyyə verib. Axşam.az-ın xarici KİV-ə istinadən məlumatına görə, Çançunq şəhərində yaşayan gənc sevgilisinə 10 min yuan (təxminən 2500 AZN) pul əskinaslarından bağlanmış bir buket bağışlayıb. Oğlan bildirib ki, gül alsaydı, o, iki günə solacaqdı. Amma verilən pulları sevgilisi uzunmüddət xərcləyə və istədiklərini ala bilər. Hadisə bir ay öncə baş versə də, buketin fotoları bu günlərdə mediaya çıxıb. Şəkli bəzi insalar müsbət qarşılasalar da, bəziləri oğlanın bu addımını tənqid ediblər. Onlar bu hərəkətin qətiyyən romantik olmadığını vurğulayıblar. Qeyd edək ki, bənzər hadisə ötən ildə Çində olub. O zaman bir gənc 5 min yuan (təxminən 1300 AZN)olmaqla gül buketi hazırladıb və sevdiyi qıza təqdim edib.

## Diş əti xəstəliklərinin əsl səbəbləri...




Türkiyədə diş sağlamlığı sahəsində fəaliyyət göstərən Periodontologiya Mütəxəssisi Dr. Dəniz Mertoğlu, diş əti xəstəliklərinin insan sağlamlığına vurduğu mənfi təsirlər haqda danışıb. Onun sözlərinə görə stomotoloji problemlərdən sayılan diş əti xəstəliklərinə sistemik xəstəliklər, genetik faktorlar, dərman istifadəsi, zərərli vərdişlər, hormonal dəyişikliklər, stress, diş sıxma və gıcırdatma kimi pis vərdişlər təsir göstərir. Bu baxımdan sağlamlıq və gözəl həyat üçün sağlamlıq prosedurlarını bilmək və balans saxlamaq önəmlidir. Dişlər təbii tarazlıqda olduqda belə sağlam, bəyaz və parlaq olur. Gündəlik olaraq yemək, içmək, siqaret çəkmək dişlərin təbii tarazlığını poza bilər. Əgər dişlərin təmizlənməsi zamanı diş əti qanayırsa bu bakterial tarazlığın pozulmasına bir işarədir və artıq ağız boşluğu sağlamlığının pozulması deməkdir.

Ərp azaldıcı aktiv tərkibli və büzücü (astringent) təsirə malik olan stamatoloji məhsullar diş ətini möhkəmləndirir. Xüsusilə incə və yumşaq fırça tükcüklər diş ətinə olan əlavə zərərin qarşısını alaraq, dişlə diş ətinin sərhədlərində, daxil olması çətin olan diş sahələrində bakterial ərpin aradan qaldırılmasına kömək edir.

İlk simptomların bilindiyi erkən mərhələdə dərhal və düzgün təmizlənilsə itihablı diş əti adətən qısa müddət ərzində bərpa olunur. Sağlam diş əti möhkəm və çəhrayı rəngdə olur, hətta zərif sıxdıqda belə qanamır. İltihablı diş əti ağrı vermir. Adətən insanlar diş ətinin necə pis vəziyyətdə olduğunu bilmirlər. Düşünürlər ki, "diş fırçalamada bir az qan çıxması normal haldır."

Diş əti xəstəlikləri karies kimi geniş yayılmışdır. Beləliklə, bakteriya yumşaq toxumalara hücum edir və onların daha da geri çəkilməsinə səbəb olur.

Diş əti infeksiyasının müalicə edilməməsinin uzun müddətli nəticəsi kimi çənə sümüyü zədələnir və dişlər düşür. Diş ətinin qanaması və toxumanın qırmızı rəngi zamanı dərhal reaksiya vermək lazımdır: yumşaq diş fırçası ilə təmizləmə və diş arası sahələrin təmizlənilməsi diş ətini daha tez bərpa edir. Asan anti-bakterial ağız yaxalayıcısı və bərpaedici diş məcunu da kömək edir. Stomatoloqlar, gigiyenist və diş həkimləri, profilaktik həkim tərəfindən peşəkar diş təmizliyi də bərpaya kömək edir.

## ELAN

ANAR-X Çoxsaylı İstehsal və Xidmət İstiqamətli Kiçik Müəssisəyə məxsus - nizamnamə, Dövlət Reystrindən çıxarış və şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

Rəsulovlar ailəsi Füzuli Əliyevə anası
Sara xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

## Azərbaycanla Serbiya arasında yoldaşlıq oyunu keçiriləcək



**AFFA**-nın baş katibi Elxan Məmmədov Serbiyada işgüzar səfərdə olub. Qol.az-ın Serbiya mətbuatına istinadən yaydığı xəbərə görə, o, səfər çərçivəsində Serbiya Futbol Federasiyasının prezidenti Slavişa Kokeza ilə görüşüb. İki ölkənin futbol federasiyası arasındakı əməkdaşlıq məsələləri müzakirə edib. Görüş zamanı Azərbaycan və Serbiyanın aşağı yaş qruplarından ibarət milli komandalar arasında yoxlama matçlarının keçirilməsi qərara alınıb. Kokeza görüş zamanı UEFA-nın İcraiyyə Komitəsinin üzvlüyünə namizəd olan Elxan Məmmədova bu baxımdan dəstək olacağını bildirib. Qeyd edək ki, UEFA İcraiyyə Komitəsinə seçkilər aprelin 5-də Finlandiyanın paytaxtı Helsinkidə keçiriləcək qurumun növbəti konqresində baş tutacaq. Elxan Məmmədov İcraiyyə Komitəsinin üzvlüyünə 13 namizəddən biridir.

## Avropa kuboku yarışında birinci yeri tutan cüdoçularımız Bakıda böyük coşqu ilə qarşılanıblar



İspaniyanın Fuengirola şəhərində keçirilən yeniyetmələr arasında Avropa kuboku yarışında böyük uğura imza atmış cüdoçularımız artıq Vətənə qayıdıblar. Mötəbər turnirdə 4 qızıl, 2 gümüş və 1 bürünc medal qazanan millimiz komanda hesabında birinci olub.

AZƏRTAC xəbər verir ki, yığma komandanın üzvlərini Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Cüdo Federasiyasının rəsmiləri, idman ictimaiyyətinin nümayəndələri, jurnalistlər və azarkeşlər böyük coşqu ilə qarşılayıblar.

Xatırladaq ki, Avropa kubokunda Ayxan Tanrıverdiyev (55 kq), Vüsal İbrahimov (60 kq), Məhəmməd Abdullayev (90 kq) və Vüsalə Kərimova (40 kq) qızıl, Knyaz Mahmudlu (66 kq) və Adil Kərimli (90 kq) gümüş, Nazir Talıbov (50 kq) isə bürünc medal qazanıblar.

## Çempionlar Liqasının ən yaxşısı bəlli oldu

**UEFA** Çempionlar Liqasında bu həftənin ən yaxşı futbolçusunun adını elan edib. Qurumun saytında yerləşdirilən xəbərə görə, azarkeşlər arasında keçirilən səsverməyə əsasən, "Mançester Siti"nin yarımmüdafiəçisi Rahim Sterlinq ən yaxşı oyunçu seçilib. O, səslərin 35 faizini toplayıb. Qeyd edək ki, R.Sterlinq "Monako" ilə (5:3) görüşdə 1 qol vurub və 1 məhsuldar ötürmə edib.

## Mourinyodan Ranyeriyə: "Heç kim sən yazdığın tarixi silə bilməz"



"Mançester Yunayted"in baş məşqçisi Joze Mourinyo "Lester"dən qovulan həmkarı Klaudio Ranyeriyə dəstək olub. Qol.az-ın Britaniya mətbuatına istinadən yaydığı xəbərə görə, portuqaliyalı mütəxəssis sosial şəbəkədə paylaşdığı statusda Ranyeri haqda xoş sözlər deyib, ona karyerasında uğurlar arzulayıb: "İngiltərə çempionu və dünyada ilin ən yaxşı məşqçisi seçilmiş şəxs qovulub. Müasir futbol belədi, Klaudio. Gülməyə davam et, dostum. Heç kim sənin yazdığın tarixi silə bilməz".

Qeyd edək ki, "Lester" Ranyerinin rəhbərliyi altında ötən mövsüm tarixində ilk dəfə olaraq İngiltərə çempionluğunu qazanıb. Hazırda isə komanda 17-ci pillədə qərarlaşıb.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

**Buraxılışa məsul: Mətləb Salahov**
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**